

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qürur duyduğumuz Bütöv Azərbaycan Bayrağı




3

SƏS

№ 207 (7132)

8 noyabr 2024-cü il.
Qiymәti 60 qәpik

## Müasirləşən Bakı: davamlı inkişaf və tərəqqiyə doğru!



2

**Prezident İlham Əliyev Böyükşor-Pirşağı yeni avtomobil yolunun və Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak edib**

# BÖYÜK ZƏFƏR:

## xalqın şərəf, qürur və namusunun xilası




10

### YAP-ın təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib




4

### Balacaların böyük mübarizəsi



12

### Bu gündən Azərbaycanda altıgünlük bayram tətili başlayır



16

### Georgi Qoquan: "Azərbaycan Qafqazda əsas oyunçudur"




15

### Başımız üstündə və qəlbimizdə dalğalanan BAYRAĞIMIZ



13

# Müasirləşən Bakı: davamlı inkişaf və tərəqqiyə doğru!

## Prezident İlham Əliyev Böyükşor-Pirşağı yeni avtomobil yolunun və Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak edib

Müasir dövrümüzdə texnologiyalar təkmilləşir, görülən işlərin hər biri insanların rahat, firavan, sağlam həyat sürməsinə yönəldilib. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Dövlət başçısının dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Davamlı inkişafa, xalqımızın rifahının yüksəlişinə xidmət edən, sürətlə yeniləşən və müasirləşən yol infrastrukturu da müstəqil dövlətçiliyimizin çox mühüm nailiyyətlərindəndir. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı Prezident İlham Əliyev uğurla davam etdirərək, onu dövrün tələblərinə, zamanın çağırışına uyğun olaraq, daha da zənginləşdirib. Bunun bariz nümunəsidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 21 ildə Azərbaycanda sürətli və davamlı sosial-iqtisadi inkişafa nail olunub. Bu inkişafın əsas elementlərindən biri olan yol infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində ölkəmizdə tarixi layihələr icra olunub. Azərbaycan Prezidentinin Sərəncam və göstərişlərinə əsasən, ölkəmizin hər yerində - paytaxtımızda, eləcə də, regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin, yaşayış məntəqələrinin









daxili yollarının təmirinə və yenidən qurulmasına ayrılan diqqətin nəticəsidir ki, avtomobil yol şəbəkəsi genişlənir, infrastruktur təzələnir və müasirləşir.

Görülən işlərin davamı olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Böyükşor-Pirşağı yeni avtomobil yolunun açılışında iştirak edib. Böyükşor-Pirşağı yeni avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni yol başlanğıcını Balaxanı qəsəbəsinin ərazisindən (Böyükşor gölü) götürməklə, Digah və Məmmədli qəsəbələrindən keçərək Kürdəxanı və Pirşağı qəsəbələrinə qədər uzanır.

### MÜASİRLƏŞƏN YOL İNFRASTRUKTURU

Paytaxtda nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq bu yol 1b texniki dərəcəyə uyğun olaraq ən müasir tələblər səviyyəsində inşa edilib və 6 hərəkət zolağından ibarətdir.

Layihəyə əsasən yolboyu 6 yol ötürücüsü və bir avtomobil keçidi inşa edilib. Bundan başqa, yolboyu 3 yerdə "U" tipli geri dönüş keçidi yaradılıb. Həm nəqliyyat vasitələrinin, həm də piyadaların ərazidə rahat və təhlükəsiz hərəkətini təmin etmək üçün yeni piyada səkiləri salınıb. Yeni avtomobil yolunun hər iki istiqaməti üzrə velosiped zolaqları salınıb, yolboyu müasir işıqlandırma sistemi quraşdırılıb. Layihəyə uyğun olaraq, ayırıcı zolaqlarda və yol kənarlarında əlavə abadlıq işləri görülüb. Bundan başqa, müasir tələblər nəzərə alınaraq yolun 3-cü kilometrində elektrik avtomobilləri üçün enerjidoldurma qurğuları quraşdırılıb. Qeyd edək ki, Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Bakı şəhərinin perspektiv inkişafı nəzərə alınmaqla Böyükşor-Pirşağı avtomobil yolunun tikintisi Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən icra olunub. Yol infrastrukturunun yenilənməsi ilə bağlı görülən işlər həm ölkə əhəmiyyətli yolları, həm də kənd yollarını əhatə edir. Bütün bu işlər bir daha sübut edir ki, ölkədə həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaşlarımızın rahatlığı və sosial vəziyyətinin yaxşılaşdırılması dayanır.

### "BAKI DOĞRUDAN DA DÜNYANIN ƏN GÖZƏL ŞƏHƏRLƏRİNDƏN BİRİDİR"

Paytaxtımızın daha da müasirləşdirilməsi, şəhərin abadlaşdırılması istiqamətində görülən işlər yaşıllıq zolaqlarının və parkların salınması ilə paralel şəkildə davam etdirilir. Yeni parklarda yaşıllaşdırma, işıqlandırma işləri görülür, müasir oturacaqlar quraşdırılır, uşaq əyləncə zonası yaradılır. Yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdəndir. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. "Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir", - deyə Prezident çıxışlarının birində bildirib.

Xatırladaq ki, Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakı şəhərində həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi son illərdə daha da artıb. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən abadlıq-quruculuq işlərinin davamlı xarakter aldığını nümayiş etdirir. Bakıdakı Mərkəzi Park şəhərimizə xüsusi gözəllik verən parklar sırasındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 7-də Bakıda Mərkəzi Parkın üçüncü hissəsinin açılışında iştirak edib. Mərkəzi Parkın birinci hissəsi 2019-cu il mayın 22-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə istifadəyə verilib. Parkın ikinci hissəsinin açılışı isə 2022-ci il dekabrın 30-da olub. Prezident İlham Əliyev açılışda iştirak edib. Növbəti mərhələdə isə Mərkəzi Parkın üçüncü hissəsinin 9 hektar ərazisi tam abadlaşdırılıb, burada ən müasir tələblərə uyğun yeni istirahət zonası yaradılıb. Parkın yeni hissəsinin ümumi ərazisi illərdir yığılıb qalmış tullantılardan təmizlənib, torpaq səthi dəyişdirilib və müvafiq aqrotexniki tədbirlər görülüb.

### PAYTAXTIN ƏN GÖZƏL İSTİRAHƏT GUŞƏLƏRİNDƏN BİRİ

Ümumilikdə parkın bu hissəsinin 7,4 hektarında 19 növdə 3 min 500 ağac, 25 mindən çox gül və kol bitkiləri əkilib. Burada yaşıllaşdırmanın daha səmərəli olması üçün əraziyə 60 min kubmetrə yaxın münbit torpaq tökülüb, müasir suvarma sistemi qurulub.

Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasının əsas xüsusiyyəti bu istirahət məkanının ilin fəsillərini özündə əks etdirməsidir. Layihənin ən mühüm xüsusiyyətlərindən biri piyadaların Abdulla Şaiq küçəsinin hərəkət hissəsindən keçmədən maneəsiz gediş-gəlişi üçün yeraltı tunelin inşa edilməsidir. Onun inşası ilə Mərkəzi Parkın 1-ci, 2-ci və 3-cü hissələri arasında tam bağlantı yaradılıb. Ərazidə 3 fəvvarə kompleksi inşa edilib, idman qurğuları quraşdırılıb, uşaq əyləncə, həmçinin futbol-basketbol meydançaları, yaşlı insanların asudə vaxtlarının səmərəli təşkili üçün şahmat və stolüstü oyun meydançaları salınıb. İstirahət parkında müasir işıqlandırma sistemi də qurulub. Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu-XX əsrin əvvəllərində inşa edilən və yerli sakinlər arasında "Təndir Hamamı" kimi tanınan tarixi-memarlıq abidəsi bərpa edilərək əvvəlki simasına qaytarılıb. Parkın ətrafındakı tarixi və digər yaşayış binaları əsaslı təmir olunub, Süleyman Tağızadə və Nabat Aşurbəyova küçələrinə yeni asfalt örtüyü döşənib, piyada səkiləri və parklanma yerləri yaradılıb, işıq dirəkləri quraşdırılıb və digər işlər görülüb. Ümumilikdə Mərkəzi Parkın üçüncü mərhələsinin tikintisi yekunlaşdıqdan, ərazidə yeni yaşıllaşdırma və abadlıq işləri görüldükdən sonra Təzəpir məscidi kompleksinin və Süleyman Tağızadə küçəsində yerləşən İmam Hüseyn məscidinin mənzərəsi tam olaraq açılıb.

Beləliklə, Mərkəzi Parkın üçüncü hissəsinin istifadəyə verilməsi ilə keçmiş "Sovetski" adlanan ərazidə salınan parkın ümumi sahəsi 35,4 hektara çatdırılıb və bura paytaxtın ən gözəl istirahət guşələrindən birinə çevrilib. Mərkəzi Parkın yeni istifadəyə verilən üçüncü hissəsi də paytaxtımızın daha da gözəlləşməsi, şəhərdə yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır. Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işləri paytaxtımızın gözəlliyinə yeni naxışlar həkk edir.

**_Zümrüd BAYRAMOVA_**

# Qürur duyduğumuz Bütöv Azərbaycan Bayrağı




**Bayraqları bayraq yapan**
**üstündəki qandır,**
**Torpaq, uğrunda**
**ölən varsa, vətəndir.**

Ucadan uca üçrəngli Azərbaycan bayrağı. Qürurlu, əzəmətli Azərbaycan Bayrağı. Hər zaman vətən torpağı üzərində məğrur-məğrur, azad dalğalanan Azərbaycan bayrağına bu gün vətən torpağının hər bir yeri bürünüb. Bu bayraq müstəqilliyimizin rəmzi, bütövlüyümüzün, varlığımızın simvoludur. Uşaqdan böyüyə qədər sanki hər kəs özünə bayraqdan don biçib. Bu bayrağı belə qüdrətli edən, dalğalandıran Azərbaycan xalqının Böyük Lideri, Prezidenti var. Bayraq bir dövlətin, millətin şərəf və ləyaqətinin ifadəsi milli suverenliyin simvolu, qürur mənbəyidir. Bayrağımız Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşməsinin başlıca amillərindən biridir. Ən müqəddəs rəmzlərdən olan bayraq millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlətə sahib çıxmaq bacarığının əsas göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev Dövlət Bayrağını yüksək qiymətləndirərək "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir" - deyə bildirmişdir. Bütün zirvələrdən, yüksəkliklərdən uca olan dövlət bayrağımız hər bir insanın vətəndaşlıq qürurudur. Azərbaycan Respublikasının Konstitusiyasında qeyd olunduğu kimi, "Azərbaycan Respublikasının dövlət rəmzləri - Azərbaycan Respublikasının Dövlət Bayrağı, Azərbaycan Respublikasının Dövlət Gerbi və Azərbaycan Respublikasının Dövlət Himnidir".

Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2009-cu il Sərəncamı ilə Dövlət Bayrağı Günü ölkəmizdə 9 noyabr tarixində qeyd olunmağa başladı. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib. 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi və Sovet hakimiyyətinin qurulması ilə üçrəngli bayrağımızın yüksəklikdə dalğalanmasına sədd qoyulsa da, bu, xalqın təfəkküründə dərin iz salmışdır. Hər kəs bu böyük amalla Azərbaycan bayrağının Vətən torpağında dalğalanması arzusu ilə yaşamışdı. Yalnız 70 ildən sonra Azərbaycanın üçrəngli bayrağı milli şüurun oyanışı ilə yenidən Azərbaycan xalqının milli müstəqilliyinin və iradəsinin ifadəsi kimi dalğalanmağa başladı.

## DÖVLƏTÇİLİYİMİZİN VƏ MÜSTƏQİLLİYİMİZİN RƏMZİ

Azərbaycan Xalq Cümhuriyyətinin atributu olmuş üçrəngli, ay-ulduzlu bayrağımızın yenidən ölkəmizin müstəqillik rəmzinə çevrilməsi Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında müstəsna xidmətlərindən biridir. İllər uzunu müstəqilliyə doğru gələn yolda Azərbaycan Respublikasının üç rəngli bayrağı ikinci dəfə qaldırıldı. Ulu Öndər Heydər Əliyev deyirdi: "Gərək hər bir evdə Azərbaycan Bayrağı olsun, hər bir ailə Azərbaycan Bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun".

Düz 71 il sonra Ümummilli Lider Heydər Əliyevin uzaqgörən zəkası və əzmi ilə Naxçıvanda dalğalandırıldı. 1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu.

1990-cı illərin çətin, ağır günlərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda mühüm dövlətçilik fəaliyyəti həyata keçirilərək, milli dövlətçilik ənənələrinin əsası qoyuldu. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti bu bayrağın yenidən Azərbaycanın Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə deyirdi: "Mən belə fikirdəyəm ki, Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı".

Dövlət atributlarını bərpa edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Azərbaycan bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin...".

## BAYRAĞIMIZ ÜZƏRİNDƏKİ HƏR BİR RƏNG AZƏRBAYCAN TARİXİNDƏN DANIŞIR

Bayrağımızda olan hər bir rəng Azərbaycan xalqına məxsus dəyərləri özündə ehtiva edir. Göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir, türkçülük ideyası ilə bağlıdır. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni və inkişaf istəyini ifadə edir. Yaşıl rəng isə islam sivilizasiyasına və islam dininə mənsubluğun göstəricisidir. Deməli, bayrağımız üzərindəki hər bir rəng Azərbaycan tarixindən danışır. Bayrağımız qürur mənbəyimizdir və yerimizdir. Müqəddəs varlıq olan üçrəngli bayrağımıza and içirik. Bu gün hər bir vətəndaşın üzərində ciddi mənəvi məsuliyyət var. Hər bir vətəndaş bu yükü öz çiyinlərində hiss etdikcə, onun dövlətçilik idealları püxtələşir. Azərbaycan xalqının türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoluna çevrilən, azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlət rəmzlərinə böyük diqqət göstərir. Ən yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız Azərbaycan dövlətinin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.

## QARABAĞDA, ŞƏRQİ ZƏNGƏZURDA DALĞALANAN BAYRAĞIMIZ

Müasir dövrümüzdə Dövlət Bayrağımız dünyanın müxtəlif ölkələrində dalğalanır. Respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır. Mötəbər mərasimlərdə və yarışlarda Azərbaycan Bayrağının dalğalanması hər kəsdə qürur doğurur. Yüksəklərdə dalğalanan bayrağımız hər birimizə qürur, böyük iftixar və azadlığın dərin hisslərini yaşadır.

Bu gün Azərbaycan Ordusunun sahib olduğu güc də Onun bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlanır. Azərbaycan əsgəri vətənimizin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı şərəfli əsgəri vəzifəsini yerinə yetirməyə başlayarkən, müqəddəs bayrağımıza and içir. Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın bu gün Qarabağda, Şərqi Zəngəzurda, Şuşada dalğalanması hər bir vətəndaşımıza qürur hissi yaşadır. Artıq hər kəs əmindir ki, bayrağımız işğaldan azad olunmuş torpaqlarda da əbədi olaraq dalğalanacaq.

***Nəzakət Ələddinqızı***



# Prezident İlham Əliyev yenidən Moldova Prezidenti seçilməsi münasibətilə Maya Sandunu təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən Moldova Respublikasının Prezidenti seçilməsi münasibətilə xanım Maya Sanduya təbrik məktubu ünvanlayıb.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı məktubunda Azərbaycan-Moldova münasibətlərinin və əməkdaşlığının bugünkü inkişaf dinamikasının məmnunluq doğurduğunu bildirib. "Biz qarşılıqlı hörmət və etimad üzərində qurulmuş dövlətlərarası əlaqələrimizin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk", - deyə Azərbaycan Prezidenti qeyd edib.

Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, xalqlarımızın rifahı naminə Azərbaycan ilə Moldova arasında ənənəvi dostluq münasibətlərinin daha da genişləndirilməsi, bir sıra sahələrdə qarşılıqlı maraq doğuran əməkdaşlığın konstruktivlik zəminində bundan sonra da müvəffəqiyyətlə davam etdirilməsi yolunda birgə səylər göstəriləcək. Azərbaycan Prezidenti Maya Sanduya möhkəm cansağlığı, xoşbəxtlik, dost Moldova xalqının firavanlığı naminə ali dövləti fəaliyyətində uğurlar arzulayıb.

# YAP-ın təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

***Noyabrın 7-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.***

Əvvəlcə tədbirdə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını müasir dövlətçilik tariximizin ən qürurverici hadisəsi - zirvə nöqtəsi olan və Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərin dördüncü ildönümü münasibətilə salamlamaqdan böyük məmnunluq duyduğunu bildirib. Tahir Budaqov vurğulayıb ki, Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad olunmasının, əzəli yurd yerlərinə əbədi qayıdışının hədsiz sevinc və qürurunu yaşamaqla 8 Noyabr - Zəfər Gününü böyük coşqu ilə qeyd edir: "Əlbəttə, bu tarixi Qələbə heç də asanlıqla qazanılmamış, möhtəşəm Zəfərə gedən yol olduqca çətin və keşməkeşli olmuşdur. "Biz öz torpaqlarımızın sahibi olmalıyıq. Sülh yolu ilə məsələləri həll etməliyik. Nəyin bahasına olur-olsun, hansı yolla olur-olsun, Şuşa da, Qarabağ da, bütün işğal olunmuş torpaqlar azad olunacaq - Azərbaycan xalqının iradəsi, Azərbaycanın






qəhrəman oğullarının şücaəti ilə azad olunacaq və Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq!", - deyən Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu hədəfə çatmaq üçün məqsədyönlü addımlar atılmış, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda məqsədyönlü işlər görülərək Azərbaycanı böyük Zəfərə aparan yolun əsası qoyulmuşdur. Bu gün iftixarla qeyd edirik ki, torpaqlarımız döyüş meydanında Ümummilli Lider Heydər Əliyevin siyasi varisi - Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun işğalçıları darmadağın edərək layiqincə cəzalandırması nəticəsində azad olunmuşdur. Eyni zamanda onu da xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi müstəqillik illərində milli maraqlara əsaslanan qətiyyətli siyasətin məntiqi nəticəsidir".

YAP Sədrinin müavini qeyd edib ki, Azərbaycan xalqı heç vaxt torpaqlarımızın işğal faktı ilə barışmamış, 30 ilə yaxın müddət ərzində inamını itirmədən haqq-ədalət mübarizəsini davam etdirərək tarixi Qələbəyə köklənmişdir: "Çünki xalqa arxalanaraq Azərbaycan dövlətini Zəfərə aparan liderlər - Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev tarixin mühüm anlarında və taleyüklü məqamlarında ölkəni çətin sınaqlardan çıxarmaqla, parlaq nailiyyətlərə imza atmaqla bu sonsuz güvəni - sarsılmaz Qələbə inamını yaratmışlar. Vətənin bütövlüyünü, tarixi ədaləti və milli ləyaqəti bərpa etmək uğrunda haqq mübarizəsini şərəflə aparan Azərbaycan xalqı iradəsini ortaya qoymuş, gücünü göstərmiş və məqsədinə nail olmuşdur".

Onun sözlərinə görə, xalqın inam və dəstəyindən güc alan Prezident İlham Əliyevin sosial-iqtisadi tərəqqiyə, ölkəmizin hərbi gücünün və müdafiə qabiliyyətinin yüksəlməsinə, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə yönəlmiş məqsədyönlü və uzaqgörən siyasəti Azərbaycanın haqq işinin Zəfərlə yekunlaşmasını təmin etmişdir: "O, uzun müddət işğal altında olan torpaqlarımızın azad edilməsinə nail olmaqla ata vəsiyyətini, Vətənə sədaqət andını və xalqa vədini şərəflə yerinə yetirmişdir. Cənab İlham Əliyev Ulu Öndərin ən böyük arzusunu gerçəkləşdirməklə Azərbaycanı Heydər Əliyevin görmək istədiyi kimi qalib, qüdrətli və əzəmətli dövlətə çevirmişdir".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpası, heç şübhəsiz, ən böyük Qələbəmiz kimi tarixə əbədi həkk olunmuşdur: "Dövlət başçısının rəhbərliyi ilə Azərbaycanın bütün cəbhələrdə - hərb meydanında, informasiya platformasında və diplomatiya müstəvisində üstünlüyünü təmin edərək böyük nailiyyətlərə müvəffəq olması nəticəsində hazırda dövlətçilik tariximizin ən möhtəşəm dövrünü yaşayırıq. 44 günlük Vətən müharibəsində və birgünlük antiterror tədbirlərində qazandığımız şanlı zəfərlər böyük tarixi və mənəvi-siyasi əhəmiyyətə malikdir. Əvvəla, Azərbaycan öz milli gücü ilə işğal faktına və separatizmə son qoymuş, çoxsaylı təzyiqlərə məruz qalmasına rəğmən, BMT-nin uzun müddət kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etməklə dünya miqyasında yeni nümunə - mühüm siyasi presedent yaratmışdır. Digər tərəfdən, Azərbaycan tarixi Zəfər qazanmaqla beynəlxalq hüquqa məhəl qoymayan, "münaqişənin hərbi yolla həlli yoxdur" deyərək işğalçılıq siyasətinin nə-




ticələrinin aradan qaldırılmasında maraqlı olmadığını nümayiş etdirən, bir çox hallarda isə təcavüzkar dövlətə dəstək göstərən qüvvələrin ikili standartlara əsaslanan qərəzli siyasətini iflasa uğratmışdır. Azərbaycanın Qələbəsi regionda ədalətli geosiyasi nizamın təşəkkülü, yeni təhlükəsizlik və əməkdaşlıq mühitinin formalaşması, sülh və etimad quruculuğunun həyata keçirilməsi baxımından böyük önəmə malikdir. Hər zaman sülh, sabitlik, rifah və firavanlıq tərəfdarı kimi çıxış edən, regionun çoxtərəfli işbirliyi məkanına çevrilməsində maraqlı olan Azərbaycan bu gün də öz mövqeyinə və prinsiplərinə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Azərbaycanın siyasəti konstruktiv xarakter daşıyır, regionun konfrontasiya deyil, dialoq, əməkdaşlıq və inteqrasiya məkanına çevrilməsinə hədəflənmişdir. Yeni reallıqlar fonunda bölgədə dayanıqlı sülhə nail olunması, kommunikasiyaların bərpası, qarşılıqlı faydalı əməkdaşlıq platformalarının reallaşdırılması Azərbaycan başda olmaqla çoxşaxəli işbirliyində maraqlı olan dövlətlər üçün önəmli imkanlar - mühüm siyasi-iqtisadi üstünlüklər vəd edir. Bir sözlə, Cənubi Qafqaz regionunun lider ölkəsi kimi müasir beynəlxalq münasibətlər sistemində prinsiplərinə sadiq etibarlı və konstruktiv tərəfdaş kimi tanınan Azərbaycan dövlə-




ti yeni reallıqlar yaradaraq geostrateji mövqelərini olduqca möhkəmləndirmişdir".

Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpasından sonra yeni mərhələdə olduqca vacib siyasi, sosial-iqtisadi və mədəni-humanitar çağırışların meydana çıxdığını deyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bunlardan biri də Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri olan işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. "Bu məqsədlə müvafiq Dövlət Proqramı qəbul edilmiş və hazırda müvəffəqiyyətlə icra olunmaqdadır. Böyük Qayıdış Proqramı çərçivəsində ərazilərin minalardan təmizlənməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, iqtisadi fəaliyyətin bərpası və digər istiqamətlərdə atılan addımlar dayanıqlı məskunlaşmanın, o cümlədən müasir standartlara uyğun yüksək keyfiyyətli həyat şəraitinin təmin olunmasına əlverişli zəmin yaratmaqla bərabər, sosialyönümlü iqtisadiyyatın inkişafı baxımından da əhəmiyyətlidir. Qarabağ və Şərqi Zəngəzurun potensialından istifadə olunması nəinki həmin bölgələrin yüksəlişi, bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafı üçün mühüm perspektivlər yaradır. Nəhayət, dövrümüzün aktual çağırışlarından biri kimi işğaldan azad olunmuş ərazilərdə "yaşıl enerji" konsepsiyası əsasında ekoloji təmiz texnologiyaların tətbiqi "yaşıl iqtisadiyyata" keçid, o cümlədən iqlim dəyişmələrinin fəsadlarına qarşı fəal mübarizə çərçivəsində "yaşıl dünya" naminə təşəbbüslərin reallaşdırılması və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi üçün son dərəcə əhəmiyyətlidir. Böyük Qayıdış 30 il ərzində Ermənistanın işğalçı siyasətindən əziyyət çəkən Azərbaycan xalqının ən böyük arzularından idi. Bu gün iftixarla qeyd edirik ki, Heydər Əliyev yolunun Müzəffər davamçısı İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər nəticəsində soydaşlarımızın arzuları gerçəkliyə çevrilir - Böyük Qayıdış prosesi uğurla reallaşdırılır. Bu proses tarixi ədalətin bərpasının təzahürü olmaqla bərabər, müasir beynəlxalq münasibətlər sisteminin layiqli və məsuliyyətli üzvü olan Azərbaycanın dünyada imicinin möhkəmlənməsinə xidmət edir və xalqımızın təntənəli Zəfər yürüşünün davam etdiyini göstərir. Dövlət başçısının qeyd etdiyi kimi: "Bundan sonra Azərbaycan xalqı müzəffər xalq kimi əbədi yaşayacaq, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaq. Biz öz torpağımızdayıq, bu torpaqda möhkəm dayanmışıq və heç kim heç vaxt bu torpaqlardan bizi tərpədə bilməz", - deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Azərbaycan dövləti və cəmiyyəti hər zaman mübariz Vətən övladlarının şücaətini yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiram göstərir, onların əziz xatirəsini uca tutur: "Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü və suverenliyi yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiramımız sonsuzdur".

"Şübhə yoxdur ki, şəhidlərimizin ruhunun şad olduğu indiki məqamda dövlətimizin qüdrəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi Azərbaycanı yeni möhtəşəm nailiyyətlərə aparacaq, həm müstəqilliyimizin, həm də tarixi Zəfərimizin mənəvi-siyasi rəmzi olan, şəhidlərin ölməzliyini, Vətənin bölünməzliyini əks etdirən, işğaldan azad edilmiş ərazilərimizdə qürurla ucaldılan üçrəngli bayrağımız daim zirvələrdə dalğalanacaqdır.

Hər birinizi xalqımızın iftixar mənbəyi və dövlətimizin sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə təbrik edir, möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram",- deyə Tahir Budaqov vurğulayıb.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Vətən müharibəsində qazanılan Qələbə tariximizə qızıl




hərflərlə yazılıb. Onun sözlərinə görə, Azərbaycanın müasir tarixinin ən mühüm iki hadisəsi dövlət müstəqilliyimizin bərpa olunması və 30 il Ermənistanın işğalı altında olan torpaqlarımızın azad edilməsidir: "Dörd il əvvəl əzəmətli, qüdrətli ordumuzun qazandığı tarixi Zəfərlə ölkəmizin ərazi bütövlüyü bərqərar olundu. Bu tarixi Zəfərin əhəmiyyəti həm də ondan ibarətdir ki, Azərbaycan torpaqlarını işğaldan azad etməklə Cənubi Qafqaz regionunda yeni reallıqlar yaratdı, beynəlxalq müstəvidə özünün mövqelərini əhəmiyyətli dərəcədə gücləndirdi".

*Ardı Səh. 5*






Əvvəli Səh. 4

# YAP-ın təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

Əli Əhmədov söyləyib ki, 44 günlük müharibədə əldə edilən möhtəşəm Qələbə bölgədə yeni mənzərə yaradır: "Bu, bir tərəfdən təhlükəsizlik amilidir, digər tərəfdən isə yeni iqtisadi əməkdaşlıq imkanları yaradır. Bu Qələbə təkcə Azərbaycan üçün deyil, bölgədə yaşayan bütün xalqlar üçün bir nemətdir. Çünki regionda sülh və təhlükəsizlik tam təmin edildikdən sonra bir çox yeniliklərin şahidi olacağıq. Artıq Azərbaycanla Ermənistan arasında sülh gündəliyi formalaşıb, sülh sazişi ilə bağlı danışıqlar davam edir. Bu amil həm də bölgə xalqları arasında yaxın əlaqələrin qurulmasında yeni səhifə açacaq. Sülh və təhlükəsizlik bütövlükdə regionumuz üçün rifah, əmin-amanlıq vəd edir".

Əli Əhmədov deyib ki, Azərbaycan həm də dünyaya sülh nümunəsi təqdim etdi: "Çünki bu Zəfərlə uzun müddət davam edən münaqişəyə son qoyuldu. Eyni zamanda, Azərbaycan bu Zəfərlə haqsızlıq və ədalətsizliklə mübarizə aparmaq, bu mübarizədə qalib gəlmək nümunəsini təqdim etdi. Ona görə də Azərbaycanın bu haqq mübarizəsi dünyada hələ də davam edən münaqişələrdə sülhə nail olmaq üçün bir nümunə ola bilər".

YAP Sədrinin müavini qeyd edib ki, möhtəşəm Qələbəni təmin edən əsas amillərdən biri ölkə iqtisadiyyatının güclü olmasıdır. Onun fikrincə, bu Qələbənin tarixdə mühüm yeri təkcə 30 il sonra torpaqların işğaldan azad edilməsi deyil, həm də milli qürurumuzun qaytarılması, milli ruhun yüksək olmasıdır: "İndi hər bir vətəndaşımız azərbaycanlı olmağın qürurunu yaşayır. Bu tarixi Qələbəni müəyyənləşdirən bir cəhət də onun döyüş meydanında əldə olunmasıdır. Biz müharibə dövründə gənclərimizin milli ruhunun nə dərəcədə yüksək olduğunu gördük. Bu amil milli ruhumuzun təntənəsi hesab oluna bilər. Heç şübhəsiz, Azərbaycan bu Qələbəni əldə etməklə öz tarixinin şərəf və ləyaqət səhifəsini yazıb".

Əli Əhmədov bildirib ki, Qələbəni mümkün edən digər amillərdən biri Azərbaycan xalqının dəyanətidir: "30 il ərzində xalqımız işğal faktı ilə razılaşmadı, güc topladı və öz torpaqlarını azad etdi. Hər bir dövlətin əsas missiyalarından biri öz xalqının təhlükəsizliyini təmin etməkdir. Azərbaycan dövləti də məhz bunu etdi. Digər tərəfdən, Qələbənin təmin olunmasında mühüm rol oynayan amillərdən biri əzəmətli Azərbaycan Ordusu, qəhrəman hərbçilərimizdir. Güclü ordumuz olmasaydı, öz torpaqlarımızı azad edə bilməzdik. Dövlətimizin qüdrəti, ordumuzun döyüş qabiliyyəti sayəsində torpaqlarımız azad olundu. Qələbəmizin həlledici amili isə Prezident, Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır. Dövlət, xalq və ordu o zaman güclü olur ki, ona güclü lider rəhbərlik edir. Bu mənada, bu gün Azərbaycan xalqının böyük coşqu ilə qeyd etdiyi Qələbəmizin baş qəhrəmanı Prezident, Ali Baş Komandan İlham Əliyevdir. Biz hərb və diplomatiya cəbhəsində cənab İlham Əliyevin liderliyini, sərkərdəlik nümunəsini gördük. Xalq-iqtidar birliyi, dövlətimizin başçısına inam möhtəşəm Qələbə ilə nəticələndi. Məhz bunun nəticəsidir ki, 30 il işğal altında qalan torpaqlarımızı 44 gündə azad etdik".

YAP Sədrinin müavini diqqətə çatdırıb ki, bu Qələbə bütün bölgədə sülh və firavanlığın təmin olunması üçün etibarlı zəmin yaradır: "Qürurvericidir ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı öz tarixinin ən şərəfli anlarını yaşayır. Tarix öz şərəf səhifəsinə cənab İlham Əliyevin adını əbədi həkk edib. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyev vaxtilə bildirmişdi ki, mənim başa çatdıra bilmədiyim işləri İlham Əliyev sona çatdıracaq. Müdrikcəsinə deyilmiş bu fikir reallığa çevrildi. Bu şanlı Qələbədən sonra Azərbaycan tarixinin yeni mərhələsi başlayıb, xalqımız dünyada öz dəyanəti, əyilməzliyi və ordusunun gücü ilə tanınır".

Əli Əhmədov işğaldan azad edilmiş ərazilərdə möhtəşəm quruculuq işlərindən də bəhs edərək keçmiş məcburi köçkünlərin Böyük Qayıdış proqramı çərçivəsində doğma yurdlarına qayıtmağa başladıqlarını vurğulayıb. Onun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərin bərpası və Böyük Qayıdışın təmin olunması yeni mərhələdə Azərbaycanın əsas prioritetləri sırasında yer alır: "Söhbət bütünlüklə dağıdılmış ərazilərin minalardan təmizlənməsindən, şəhər və kəndlərin bərpasından, zəruri infrastruktur qurulmasından gedir. Döyüş meydanında düşməni diz çökdürən və kapitulyasiyaya məruz qoyan qalib Azərbaycan bərpa və quruculuq işlərini də qısa müddətdə və yüksək səviyyədə həyata keçirmək əzmindədir. Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək. Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin ölkənin digər bölgələrinə reinteqrasiyasına qısa müddətdə nail olunmasına güclü siyasi iradə nümayiş etdirir".

Xüsusi Təyinatlı Qüvvələrin giziri, "Qarabağ" ordenli şəhid Şahmar Mənəfovun həyat yoldaşı Bəyim Mənəfova çıxışında bildirib ki, Azərbaycan xalqı artıq 2020-ci ildən hər ilin noyabr ayını böyük sevinc və fərəh hissi ilə qarşılayır: "Çünki Ali Baş Komandanımızın rəhbərliyi, Azərbaycanın igid oğullarının misilsiz şücaəti sayəsində Qarabağ əzəli sahiblərinə geri qaytarıldı. 2020-ci ilin 27 sentyabrı bizi böyük Qələbəyə aparan yolun başlanğıcıdır. Məhz həmin gündən başlayaraq "Qarabağ Azərbaycandır!" deyərək haqq savaşına çıxdıq. Bütün dünyaya, beynəlxalq aləmə qüdrətli, əzəmətli Azərbaycan dövlətinin mövcudluğunu bir daha nümayiş etdirdik. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əzmi, iradəsi, qətiyyətli mövqeyi, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində bütün dünya qarşısında başqa bir Azərbaycanı gördü. Cəmi 44 gün davam edən haqq savaşımızda, Vətən müharibəsində şanlı Ordumuz elə bir Zəfər dastanı yazdı ki, bu tarixi qələbəmiz dostu sevindirdi, düşmənlərimizə isə göz dağı oldu".

Bəyim Mənəfova deyib ki, xüsusi təyinatlı qüvvələrin giziri olan həyat yoldaşı Şahmar Mənəfov 2020-ci il oktyabr ayının 21-də Xocavənd uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib: "Mənim təsəllim onun xəyallarındakı bütöv Azərbaycanda yaşamağımdır. Bu müddət ərzində qalib ölkənin qalib Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısını hər zaman hiss etmişəm. Mən burada təkcə şəhid ailəsinin üzvü kimi yox, həm də azad Azərbaycanın gənc nəslinin yetişməsində rolu olan bir müəllim kimi iştirak edirəm. Mən çox şadam və qürurluyam ki, bizim gənclərimiz artıq ali təhsil müəssisələri sırasında Qarabağ Universitetini də seçim şansı kimi görə bilirlər".

O, ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olan, xalqımızın əmin-amanlıq şəraitində yaşamasını təmin edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə minnətdarlığını bildirib.

Xüsusi Təyinatlı Qüvvələrin mayoru, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov çıxışında bildirib ki, Vətən müharibəsi Azərbaycan xalqının varlığını, kimliyini qorumaq uğrunda aparılan haqq mübarizəsi idi: "Hər bir azərbaycanlının qəlbində yanıb tutuşan vətən sevgisi, dövlətə bağlılığı və milli kimliyimiz bizi bu zəfərə çatdırdı. Bu müqəddəs yolun hər addımı xalqımızın birliyini, ordumuzun qətiyyətini və dövlətimizin əzəmətini sübut etdi".

Onun sözlərinə görə, Qarabağın azad olunması ilə nəticələnən Vətən müharibəsi, başda Şuşa Zəfəri olmaqla qazandığımız qələbələr Azərbaycan xüsusi təyinatlılarının və Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlıq salnaməsidir: "Bu zəfərdə iştirak edən hər bir döyüşçü, öz həyatını Vətən yolunda fəda edən şəhidlərimiz və qəhrəman qazilərimiz tarix yazdılar. Cəbrayıl, Hadrut, Füzuli, Xocavənd və Şuşa döyüşlərində keçdiyimiz yollar bizə dəyərli bir dərs verdi - Vətən sevgisi hər şeydən üstün gələndə heç bir qüvvə bizi yolumuzdan döndərə bilməz. Ordumuzun hər bir əsgərinin, hər bir zabitinin qəhrəmanlığı bu Zəfərdə xüsusi yer tutdu. Şuşanın azad olunmasında ön sıralarda döyüşmək mənim üçün ən böyük qürur idi, bu müqəddəs torpaqlarda dalğalanan bayrağımızla mən bir daha anladım ki, bu xalq əyilməzdir, məğlubedilməzdir. Şuşa bizim mədəniyyətimizdir. Mən bu gün çox xoşbəxtəm və böyük qürur hissi keçirirəm ki, bu mədəniyyətin dirçəlməsində - Şuşanın azad olunmasında mənim də əməyim olub".

Vətən Müharibəsi Qəhrəmanı deyib ki, Şuşa Azərbaycan üçün milli qürurdur, mədəniyyətdir, tarixdir: "Azərbaycan əsgərinin Şuşaya bayraq sancması və bu xəbərin Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən xalqa çatdırılması 28 ildən sonra milli qürurumuzun da, mədəniyyətimizin də, tariximizin də azad edilməsini sübut etdi. Azərbaycan xalqı isə Şuşa Qələbəsi ilə öz şanlı tarixinə yenidən qayıtdı və ərazi bötövlüyümüzün bərpa olunması bu Qələbənin sayəsində daha da sürətləndi. Şuşa döyüşləri bütün döyüş əməliyyatları dövründə ən spesifik, ən emosional döyüşlərdən biri oldu. Çünki bu döyüşlərdə Azərbaycan əsgəri hər vasitə ilə qarşıya qoyulmuş hədəfə doğru addımlayırdı. Hətta silahı olmayan süngüsü ilə, süngüsü olmayan isə əlləri ilə düşmənin üzərinə atıldı. Bu elə döyüş idi ki, həmin döyüşlərdə iştirak edənlər həmin anların emosional yükünü, yəqin ki, ömürlərinin axırlarına qədər özləri ilə daşıyacaqlar".

"Biz 44 günlük Vətən müharibəsində milli iradə ilə, milli ruhla, Vətən sevgisi ilə döyüş meydanında qan tökərək, şəhid verərək, düşməni diz çökməyə məcbur edərək qələbə qazandıq. Qarabağın azadlığı Azərbaycan əsgərinin gücünün, xalqımızın birliyinin, Müzəffər Ali Baş Komandanın sərkərdəlik qabiliyyətinin təzahürüdür. Bu gün biz burada təkcə Qələbəmizi qeyd etmirik, həm də şəhidlərimizin əziz xatirəsini yad edirik. Şəhidlər xalqımızın qəhrəmanlıq tarixinin ən parlaq səhifələrini yazanlardır. Onların hər biri bizim üçün bir qəhrəmanlıq dastanıdır",- deyən Zaur Hüseynov bildirib ki, bugünkü Azərbaycan güclü, müstəqil və öz haqqını müdafiə etməyi bacaran bir dövlətdir. Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın dövlət başçısına dəstəyi bu Zəfəri daha da möhkəmləndirir.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, 8 Noyabr təkcə hərbi gücümüzün qələbəsinin deyil, həm də xalqımızın birliyi, dözümü və vətənpərvərliyinin güclü bir rəmzidir: "Çünki həqiqi qələbə yalnız döyüşlərin nəticəsi ilə ölçülmür, millətin əzmi, vətənini qorumaq üçün sarsılmaz iradəsi və yenidən qurmaq, yenilik etmək və irəliləmək gücü ilə qeyd olunur. Dörd il öncə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir çağırış ilə birləşən Azərbaycan xalqı 30 illik ədalətsizliyə, dünyanın göz yumduğu məsələyə - Ermənistanın işğalçı siyasətinə son qoydu. Rəşadətli Azərbaycan Ordusunun qələbəsi həm də daşıdığımız mənsubiyyətin - milli kimliyimizin, vətənpərvərlik və dövlətçilik dəyərlərimizin real təzahürü idi".

B.İslamov qeyd edib ki, Vətən müharibəsində qazandığımız tarixi Qələbə yeni dövrün də əsasını qoydu: "Təsadüfi deyil ki, 2020-ci ilədək Azərbaycan gəncliyinin ən ali vəzifəsi işğal altındakı tarixi torpaqlarımızın azad olunması və bu yolda xidmət etməyi özünə borc bilməsi idi. Məhz tarixi Zəfərimiz gənclərimizin daşıdığı bu ali vəzifəyə də böyük bir yenilik gətirdi. Yeni dövrün reallıqları Azərbaycan gəncliyinin üzərinə yeni bir vəzifə qoyur. Prezident İlham Əliyevin Vətən müharibəsindən sonrakı dövrdə çıxışlarına nəzər saldıqda bu vəzifəni daha aydın başa düşürük. Qazanılmış Zəfərin qorunması, daha savadlı, dünyagörüşlü, vətənpərvər yeni nəslin formalaşması, Qələbəmizi və bizə bu Qələbəni yaşadanları ən əsas miras olaraq gələcək nəsillərə ötürmək - məhz bunlar Azərbaycan gəncliyinin yeni dövrün reallıqları fonunda yeni vəzifələridir".

YAP Gənclər Birliyinin sədri deyib ki, dörd il öncə qazanılmış tarixi Zəfər sadəcə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmədi, həm də bütün dünyaya sahib olduğumuz əsl gücü nümayiş etdirdi: "Ölkəmiz beynəlxalq münasibətlərdə yalnız təmsil olunmur, həm də bütün dünyanın diqqət mərkəzində olan bir çox mövzularda qərarverici rol oynayır. Təsadüfi deyil ki, bir neçə gün sonra Azərbaycan dünyanın ən mötəbər tədbirlərindən birinə - Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək. Minlərlə iştirakçının və bütün dünyadan bir çox liderin qatılacağı bu konfransla ölkəmiz beynəlxalq gündəliyin formalaşmasında vacib rol oynayacaq. Bu isə tarixi Qələbəmizlə birgə formalaşan yeni reallıqlara ən bariz nümunələrdəndir".

"Bu gün Qarabağ yenidən qurulur, dirçəlir. İşğaldan azad olunmuş torpaqlarımıza əsl sahibləri qayıdır. Tarixi Zəfərimizdən dərhal sonra başlanan bu prosesə Azərbaycan sahib olduğu gücün sadəcə ordu gücü yox, həm də mədəni-intellektual güc olduğunu sərgiləyir. Qarabağın hər şəhər, kənd və məhəlləsini yollar və körpülər deyil, Müzəffər Ali Baş Komandanın sahib olduğu bilik və müdriklik qurur. Bu isə gələcək qələbələrin ən böyük müjdəsidir",- deyə B.İslamov vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.



# “Dəmir yumruğ”un gücünə imzalanan Bəyanat

***Dünya miqyasında söz sahibi olan Azərbaycanın iqtisadi gücü, hərbi qüdrəti, xalq-iqtidar birliyi dövlətimizin böyük gücə malik olduğunun təzahürüdür. 44 günlük Vətən müharibəsində Azərbaycanın gücünün göstəricisidir ki, xalqımız Zəfər tarixini yaşadı. Qorxaq, vəhşi erməniyə Azərbaycan oğulları döyüş məharətlərini, peşəkarlıqlarını göstərdilər. 44 günlük Vətən müharibəsi Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da onu kapitulyasiya aktını imzalamasına məcbur etmiş oldu. Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli Bəyanatın imzalanması Azərbaycanı dünyada qalib, Ermənistanı isə məğlub dövlət kimi tanıtdı.***

Dörd il bundan əvvəl - 10 noyabr 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edərək ”Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır”, - deyə bildirmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin birgə imzaladığı Bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən, Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu.

Bəyanata əsasən, Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. 20 noyabr 2020-ci il tarixinədək isə Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.



Üçtərəfli Bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və Kəlbəcər işğaldan azad olundu.

Azərbaycan Prezidenti çıxışlarının birində bildirdiyi kimi, ”Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şülələrini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır”.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş nazirinin birgə imzaladıqları Bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi.

Bəyanatda o da qeyd olunurdu ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. ”Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

## ERMƏNİSTAN MƏĞLUBİYYƏTİNİ QƏBUL EDİB KAPİTULYASİYA AKTINA İMZA ATDI

44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Azərbaycanın güclü ordusu, yenilməz ordusu bu tarixi bizlərə yaşatdı. Cənab Prezidentin bildirdiyi kimi, ”Noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu”.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın həm döyüş meydanında, həm də diplomatik danışıqlar nəticəsində qazandığı zəfər tariximizə Qələbəmizi həkk etdi və bu hər birimizdə böyük qürur, fəxarət hissi yaratdı. Bu tarixi qələbəmiz bütün dünyaya yayıldı və Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurmaqla, onları torpaqlarımızdan qovaraq, məğlub etməsi 30 ilə yaxın işğal altında olan tarixi torpaqlarımızın azad olunması ilə nəticələndi. Bu əlamətdar hadisə milli birliyimizi, həmrəyliyimizi daha da gücləndirdi.

## BƏYANATIN İMZALANMASININ SƏBƏBLƏRİNDƏN BİRİ DƏ TARİXİ QƏLƏBƏMİZ İDİ

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, ”Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 30 illik həsrətinə son qoyulur.”

Bəyanatın imzalanmasından dörd il ötməsinə baxmayaraq, Ermənistan hələ də sülh müqaviləsinin imzalanmasından boyun qaçırır. ”Biz müharibə istəmirik. Biz ədalətli sülh istəyirik. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır. Əgər Ermənistan xoş niyyət göstərsə, bu, imzalanacaq, göstərməsə, imzalanmayacaq. Ondan sonra nə olacaq, onu həyat göstərər”, - deyə Prezident bildirmişdir.

## HƏRB TARİXİNDƏ YENİ SƏHİFƏ

Qeyd edək ki, Ermənistan beynəlxalq hüquq normalarını yenidən pozaraq, ötən ilin sentyabrında genişmiqyaslı təxribat törətdilər. Bu təxribatı törətməklə Azərbaycan-Ermənistan sülh danışıqlarını pozmaq və regionda hərbi gərginliyi artırmaq məqsədini reallaşdırmağa çalışıb. Ermənistanın hazırkı siyasi elitası 2020-ci il 10 noyabr Bəyanatının şərtlərini yerinə yetirməməkdə, sülh danışıqlarını müxtəlif bəhanələrlə pozmaqda israrlı olduğunu göstərmiş oldu. Ermənistan öz işğalçı siyasətini davam etdirsə də, Ordumuz döyüş meydanında müharibə qanunlarına əməl etməklə, hərb tarixinə yeni səhifə yazdı. Ərazi bütövlüyünü bərpa edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etmiş oldu. Azərbaycan işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri apardığı bir zamanda, Ermənistanın yenidən bu və ya digər çirkin əməllərə əl atması ilə təcavüzkar siyasət yürüdən Ermənistanın davamlı sülh prosesinə ciddi maneə olduğunu bir daha ortaya qoymuş olur.

10 noyabr Bəyanatının imzalanması ilə ölkəmizin əldə etdiyi ən önəmli siyasi uğurlardan biri Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyasına razılıq əldə olunması və bu məsələ ilə bağlı müvafiq Komissiyaların yaradılması oldu.

Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinə başlanılıb. Dövlət başçısı bildirib ki, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Aparılan abadlıq-quruculuq işləri ərazilərimizin tezliklə müasir bir əraziyə çevriləcəyini göstərir.

***Zümrüd BAYRAMOVA***

# Müstəqil Azərbaycanın ilk ali Qanunu




Zəfər qazanmış Azərbaycan 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu günü - ilk milli Konstitusiyamızın qəbul edilməsinin 29-cu ildönümünü qeyd edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk milli Konstitusiya çağdaş dünyanın ən mütərəqqi konstitusiyalarından biri olmaqla, suveren dövlətçilik tariximizdə yeni mərhələ açdı, dövlət quruculuğu, iqtisadiyyat və ictimai-siyasi həyatda dinamik inkişafa güclü təkan verdi. 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, ümumxalq səsverməsi - referendum yolu ilə özünün ilk milli Konstitusiyasını qəbul edərək, Ana Qanunumuzda qanunçuluğu ideya və dəyərlər sistemi kimi təsbit etmiş oldu. Qeyd edək ki, Milli Məclisin 1995-ci il 2 may tarixli qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq olundu. Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın ilk iclası 1995-ci il iyunun 5-də keçirilib. Həmin iclasda çıxış edən Ulu Öndər Heydər Əliyev qeyd edib ki, müstəqil Azərbaycanın ilk Konstitusiya layihəsinin hazırlanması olduqca mühüm bir tarixi hadisədir: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik". Konstitusiyanın qəbulundan sonra ölkəmizdə hüquqi dövlət quruculuğu və insan haqlarının təmini sahəsində əhəmiyyətli dəyişikliklər baş verdi. 1996-cı il fevralın 6-da Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə noyabrın 12-i Azərbaycan Respublikası Konstitusiya Günü elan edildi. Hər il 12 noyabr - Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunduğu gün ölkəmizdə rəsmi dövlət bayramı kimi qeyd olunur.

## SOVET DÖVRÜNDƏ YENİ KONSTİTUSİYA LAYİHƏSİ

Qeyd edək ki, Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. SSRİ-nin yaradılması ilə əlaqədar 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər Qurultayında Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunub. 1927-ci il martın 26-da V Ümumazərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-in növbəti Konstitusiyası təsdiq edilib. 1936-cı ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar 1937-ci il martın 14-də IX Ümumazərbaycan Sovetlər Qurultayının qərarı ilə Azərbaycan SSR-in yeni Konstitusiyası qüvvəyə minib. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edildikdən sonra Azərbaycan SSR-in yeni Konstitusiya layihəsi hazırlanıb. 1978-ci il aprelin 2-də ümummilli lider Heydər Əliyevin təklifi ilə yeni Konstitusiyada 73-cü maddə aşağıdakı redaksiyada verilib: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". 1978-ci il aprelin 21-də Azərbaycan SSR-in sonuncu Konstitusiyası qəbul olunub. Burada Azərbaycan dilinə dövlət dili statusunun verilməsi Ümummilli Lider Heydər Əliyevin xalq qarşısında tarixi xidmətlərindən biridir. Həmin Konstitusiyaya 1980-ci illərin ikinci yarısından etibarən çoxsaylı əlavə və dəyişikliklər edilib. Bunun nəticəsində ilkin redaksiyaya münasibətdə əhəmiyyətli dərəcədə dəyişikliyə uğrayan Konstitusiya 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilənədək qüvvədə olub.

## "BU KONSTİTUSİYA AZƏRBAYCAN XALQININ KEÇDİYİ TARİXİ İNKİŞAF YOLUNUN MƏNTİQİ NƏTİCƏSİDİR"

Ümummilli Lider Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

İlk ali Qanunu qəbul etməklə, Azərbaycan xalqı bütün cəmiyyətin və hər kəsin firavanlığını, azadlığını və təhlükəsizliyinin bərqərar edilməsinə nail oldu. Müstəqil dövlətin ilk konstitusiyası, eyni zamanda, xalqımızın dünyəvi, milli-mənəvi prinsipləri rəhbər tutaraq, seçdiyi gələcək yolun ifadəsi idi. 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olan konstitusiyanın mühüm özəlliklərindən biri də vətəndaş hüquq və azadlıqlarına geniş yer ayrılması idi. 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmü ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. 14 iyul 1998-ci il tarixdə Azərbaycanda konstitusion müstəvinin ən vacib institutlarından biri - Konstitusiya Məhkəməsi fəaliyyətə başladı. 1998-ci il avqustun 6-da Ümummilli Lider Heydər Əliyev konstitusion hüququn təməl prinsiplərindən olan söz azadlığının təminatı ilə bağlı mühüm bir qərara imza atdı. Belə ki, mətbuat üzərində senzura tamamilə ləğv edildi. 1999-cu il dekabrın 12-də Konstitusiyada təsbit olunmuş keçid müddəalarından daha birinə əməl olundu - ölkədə ilk bələdiyyə seçkiləri keçirildi, yerli özünüidarə institutu fəaliyyətə başladı. 2001-ci ilin yanvarında Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi ilə ölkəmiz bir sıra Konvensiyalara qoşuldu, dövlətin hüquqi sisteminin demokratik dünya standartlara uyğunlaşdırılması davam etdi. 2002-ci ildə İnsan Hüquqları üzrə Müvəkkil - Ombudsman Təsisatı fəaliyyətə başladı.

## YENİ DÖVRÜN TƏLƏBLƏRİNİN YARATDIĞI ZƏRURƏT

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin tərəqqisinə, inkişafının davamlı xarakter daşımasına, dövlət müstəqilliyinin möhkəmlənməsinə, idarəetmənin təkmilləşdirilməsi və demokratik inkişaf prosesinə töhfələr verir. Prezident İlham Əliyevin ötən 21 ildə Azərbaycana rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələrində uğurlar əldə edilib, ardıcıl olaraq sosial-iqtisadi islahatlar həyata keçirilib. Cəmiyyətin inkişafı, yeni ictimai-siyasi münasibətlərin meydana çıxması konstitusiyada islahatların aparılmasını zəruri etdiyindən, 2016-cı ildə növbəti dəfə Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsi keçirildi. Konstitusiya islahatları cəmiyyətin sosial sifarişi olaraq ciddi bir zərurət kimi meydana çıxdı.

Son illər ərizində əldə edilən uğurlar, yeni çağırışlar konstitusiyamıza da təsirsiz ötüşmədi. Yeni dövrün tələblərinin yaratdığı zərurət Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilməsi ilə nəticələnib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da gücləndirilməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

## KEYFİYYƏTCƏ YENİ MƏRHƏLƏ

Silahlı Qüvvələrlə bağlı edilən dəyişikliklər də təqdirəlayiqdir. Belə ki, Ali Baş Komandan statusu yalnız ordu, Silahlı Qüvvələr üzərində idisə, artıq konstitusiyaya edilən dəyişikliklərə əsasən, bütün silahlı birləşmələr Ali Baş Komandanın əmrinə tabedir. Digər mühüm və vacib məqamlardan biri isə prezidentlik müddətinin 5 ildən 7 ilə artırılmasıdır. Dünyanın bütün demokratik dövlətlərində vitse-prezidentlik institutu var. Dünya təcrübəsində olan bu demokratik ənənənin Azərbaycan Konstitusiyasında da əks olunması müsbət haldır. Bütün bunlar çevik və səmərəli siyasət aparmağa, ölkənin siyasi nüfuzunu və iqtisadi-hərbi qüdrətini daim artırmağa, iqtisadi və siyasi səhnədə olduğu kimi, idarəetmədə də islahatlar keçirməyə imkan yaradır.

Azərbaycanın dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı islahatlar, tərəqqi və quruculuq prosesləri öz mənbəyini, məhz Azərbaycan Respublikasının Konstitusiyasından götürüb. Əsas Qanunda təsbit edilmiş prinsip və istiqamətlər ölkəmizdə siyasi, hüquqi, iqtisadi, sosial və digər sahələrdə davamlı inkişafın əldə olunmasına zəmin yaradıb. Azərbaycan dövləti bu gün öz tarixinin böyük tərəqqi ilə xarakterizə olunan dövrünü yaşayır, öz inkişafının keyfiyyətcə yeni və daha yüksək mərhələsinə qədəm qoyub.

Bu gün Azərbaycan qalib ölkə kimi dünyada tanınır. Vətən müharibəsi Azərbaycan xalqının nə qədər vətənpərvər, böyük xalq olduğunu, milli birliyini, həmrəyliyini bütün dünyaya sübut etdi. Bu gün Azərbaycan bayrağı işğaldan azad edilmiş bölgələrdə ucaldılıb və bu bayraq daim həmin ərazilərdə dalğalanacaq. 44 gün davam etmiş Vətən müharibəsində qazanılmış parlaq Qələbə sayəsində 30 ilə yaxın müddətdən sonra Azərbaycan Konstitusiyasının tələblər və müddəaları yerinə yetirilib. "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi... Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq" - deyə Prezident bildirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı bundan sonra da tarixi nailiyyətlər əldə edəcək.

*Nəzakət ƏLƏDDİNQIZI*


Azərbaycan tarixinə
qızıl hərflərlə yazılan
8 Noyabr Zəfər günü münasibətilə,
Azərbaycan xalqını təbrik edir,
əbədi sülh və xoş gələcək arzulayırıq.
Zəfərin əbədi olsun, Azərbaycan!
trendyol

DELTA
TELECOM LTD



**Delta Telekom Məhdud Məsuliyyətli Müəssisəsinin kollektivi və rəhbərliyi adından Cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevi , Qəhrəman Milli Ordumuzu, eləcə də Azərbaycan xalqını**

# 8 NOYABR – ZƏFƏR GÜNÜ

**münasibəti ilə səmimi qəlbdən təbrik edirik. Xalqımıza əbədi sülh, dövlətimizə rifah və xoş gələcək arzulayırıq!**

**Zəfərin əbədi olsun, Azərbaycan!**

*Hörmətlə,*
*“Delta Telekom” MMM*

# BÖYÜK ZƏFƏR:

## xalqın şərəf, qürur və namusunun xilası

***2020-ci ilin payızında, 44 günlük İkinci Vətən müharibəsi ilə 30 il erməni işğalı altında qalan torpaqlarımız azad edildi. Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin müzəffər sərkərdəliyi ilə milli ordumuzun qəhrəman zabit və əsgər heyəti Qarabağda üç əsrə bərabər hərbi taktika həyata keçirdi və bir qərinəyə yaxın düşmən tapdağı altında inləyən ata-baba yurdlarını soydaşlarımıza qaytardı.***



Azərbaycan xalqı Zəfər qazandı. Möhtəşəm tariximizin 270 ildən artıq dövründən sonra onun səhifələrinə qürur sətirləri yazıldı. Dövlətimizin başçısının 20 illik yorulmaz fəaliyyətinin və hər dəfə söylədiyi - əgər Qarabağ sülh yolu ilə geri alınmazsa, hərb yolu ilə azad ediləcək- dəyərli fikirlərinin nəticəsi olaraq ulu yurd yerlərimiz qarış-qarış düşməndən azad edildi.

Bu torpaqlar sülh yolu ilə də azad edilə bilərdi. Bunun üçün dövlətimizin başçısı illərlə beynəlxalq təşkilatlarla, müxtəlif dövlətlərlə danışıqlar apardı. Lakin həm ölkələr, həm də təşkilatlar susdu. Azərbaycan dövləti üçün yeganə yol qaldı: torpaqları hərb yolu ilə geri almaq. Və bunu 2020-ci ildə 44 günlük Vətən müharibədə gördük və şanlı Zəfərimizin qürurunu yaşadıq.

Birinci Vətən müharibəsində olduğu kimi, minlərlə şəhidimiz, qazimiz, itkinimiz oldu. Lakin bunlar müharibənin "qanunlarıdır". Nə şəhidsiz, nə qazisiz, nə itkinsiz, nə



də dağıntısız müharibə olur. Zəfər şəhid, qazi, itkinlə qazanılır. İkinci Vətən müharibəsində əldə etdiyimiz şanlı Zəfər də çoxsaylı Vətən övladının şəhid olması, sağlamlığının məhdudlaşması və itkin düşməsi ilə qazanıldı. Təsəllimiz isə "Oğul torpaq üçün doğulur" deyimi oldu.

Lakin xalqı qarşıda yeni bir Zəfər də gözləyirdi. 2023-cü ildə Xankəndidə birgünlük antiterror əməliyyatı ilə daha böyük Zəfər qazandıq. Bu dəfə erməni nankorları torpaqlarımızı könüllü şəkildə tərk etdi və bununla da Qarabağ və Şərqi Zəngəzurun işğal altında olan əraziləri tamamilə azad olundu. Dövlətimizin ərazi bütövlüyü və konstitusiya quruluşu bərpa olundu.

### Qarabağ məsələsi bir an da unudulmadı

Ulu Öndər Heydər Əliyevin Azərbaycana məhəbbətinin, sevgisinin, torpaqlarımızın bir gün geri qaytarılması üçün mübarizəsinin davamçısı oldu cənab İlham Əliyev. O, tək ailəsinin deyil, ümumilikdə Azərbaycan xalqının övladı oldu. Dövlətimizin başçısı kimi fəaliyyət dövrünün hər anı ölkəmizin inkişafına, dünyada tanınmasına, bir də ata nəsihətlərinin həyata keçirilməsinə sərf edilib.

Qarabağ məsələsi isə bir an da unudulmadı. Liderimizin bütün bayramlarda xalqa müraciətlərində Qarabağın bir gün azad olunacağına əminliyini dinlədik. Bu torpaqların düşmən tapdağı altında inləməsini ürək yanğısı ilə yaşadığını hiss etdik. Onların bir gün yenə də bizim olacağına xalqı əmin etdiyini gördük...

Prezidentimiz ən mötəbər tədbirlərdə Qarabağla bağlı dünyaya üz tutdu. Qarabağ həqiqətlərini onlara çatdırdı. Bütün dünyanı haqq səsimizə səs verməyə çağırdı. Bu qədim torpaqların Azərbaycana məxsusluğunu tarixi faktlarla sübut etdi. Bizim Prezidentimiz yeri gələndə tarixçi oldu, yeri gələndə coğrafiyaçı, yeri gələndə siyasətçi, yeri gələndə sıravi azərbaycanlı. Mükəmməl olaraq rus və ingilis dillərdə mötəbər kürsülərdəki səlis nitqləri ilə bir tərəfdən azərbaycanlı olduğu, bizim Lider olduğu üçün, digər tərəfdən isə xalqın istəklərini aydın çatdırdığı üçün qürur duyduq.

Bizim Prezidentimiz Azərbaycanın sülhün tərəfində dayandığını bütün dünyaya bəyan etdi. Dünyanı sülhə çağırdı. Ermənistandan dinc yolla torpaqlarımızı qaytarmasını tələb etdi. Liderimiz ikinci yolu da birinci yolla paralel inkişaf etdirirdi. Bu, hərb yolu idi. Dəfələrlə çıxışlarında, beynəlxalq tədbirlərdə açıq şəkildə bildirirdi ki, torpaqlarımız sülh yolu ilə qaytarılmazsa,



hərb yolunu seçməli olacağıq. Belə də oldu. İkinci yolun harada və nə vaxt başlayacağını böyük uzaqgörənliklə hazırlayan cənab İlham Əliyev dünyanın qulaqlarının sülh çağırışına kar olduğunu bir daha yəqin edəndən sonra, ikinci yola çıxmağın zamanı çatdığını bəyan etdi. Bu yol Ermənistanın yeni torpaqlar iddiasına dərhal verilən cavabla başlandı. 27 sentyabr 2020-ci il Qarabağın azadlığına gedən yol oldu. Cəmi 44 gün davam edən İkinci Vətən Müharibəsi Azərbaycan xalqının böyük Zəfəri ilə bitdi.

### 90-ların səhvini 2020-də düzəldən LİDER

Qarabağın işğalı 1990-cı ildə Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat qruplaşmasının tarixin də, bu xalqın da bağışlamayacağı səhvi idi. Vəzifədə qalmaq, kürsülərini qorumaq üçün rus imperiyasının son qalıqlarına satılan, torpaqlarımızı Ermənistana hədiyyə etməklə yerlərini möhkəmlət-




mək istəyən bir qruplaşmanın böyük səhvi idi. Bu, səhvdən də çox, ağıla gəlməyən qəbahət idi. Satqınlıq, Vətənə xəyanət, millətə qarşı günah idi.

Sən vəzifə üçün bir xalqın dədə-baba yurdunu, əzəli torpaqlarını necə sata bilərsən? Necə razılaşmaq olardı ki, erməni gecənin birində sənin soydaşının qapısında peyda olsun, onu silahın burnunda evindən çıxarıb qışın şaxtasında, ayazında yurdundan qovsun, insanlar yurdsuz, ev-eşiksiz qalsın, illərlə dişi-dırnağı ilə qurub-yaratdığı evini qoyub, dədə-baba ocağını tərk etsin. Nədir ki, sən vəzifədə qalasan, ağılsız olduğun halda hakimiyyəti zəbt edəsən.

Bəli, Qarabağ 90-cı illərin hakimiyyət vurğunlarının qurbanı olmuşdu. Minlərlə insanın ah-naləsini hələ də çiyinlərində daşıyan qruplaşmanın satqınlığının qurbanı olmuşdu. Bunu xalq sonradan bildi, AXC-Müsavat birliyinə etimadını itirdi. Onların hakimiyyətdən uzaqlaşmasını tələb etdi. Çünki gözlərinin qarşısında minlərlə şəhid, qazi, məcburi köçkünlükdə əzab çəkən insan vardı. Azərbaycanın işğal olunan baş tacı Qarabağ vardı. Bir də bu işğala görə başını dik tuta bilməyən xalq vardı. Nə vaxt, harada Qarabağdan söz düşürdüsə, başımızı aşağı dikirdik. Utanırdıq torpaqlarımızın işğal altında olmasından. Bütün bunları isə xalqa onlar bəxş etmişdi.

Cənab İlham Əliyev 90-ların səhvinin düzəldilməsi üçün uzun illər mübarizə apardı. 90-cı illərdə iqtisadi tənəzzülə uğrayan ölkənin bu vəziyyətini 1993-cü ildən etibarən aradan qaldıran, Azərbaycanda yeni Azərbaycan yaradan, bu qruplaşmanı xalqın yaxasından qoparıb atan Ümummilli Liderin gələcəyə hesablanmış inkişaf konsepsiyasını 2003-cü ildən uğurla davam etdirən dövlətimizin başçısı böyük zəhmət nəticəsində 2020-ci ildə torpaqlarımızın işğaldan azad edilməsinə nail oldu.

Böyük itkilər verdiyimiz 44 gündə Zəfər qazandıq. Bu itkilərin də səbəbkarları onlardır-AXCP-Müsavat. Onların səhvləri düzəldilsə də, torpaqlarımız azad edilsə də, Böyük Qayıdış başlansa da, yaxın gələcəkdə soydaşlarımız tamamilə ata-baba yurdlarına qayıtsalar da, AXCP-Müsavat birləşməsinin üzvlərinin bu xalqa vurduğu maddi və mənəvi zərər heç vaxt unudulmayacaq. Torpaqlarımızın azad olunmasından sonra onların hələ də ölkədə sifarişli iğtişaş yaratmaq cəhdləri isə xalqımız tərəfindən əsla unudulmayacaq. Çünki onlar müharibə zamanı həmrəy olan, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşən xalqla birlikdə olmadılar. Hələ üstəlik müharibədən sonra yeni iddialarla çıxışlar etdilər. Hanı Xankəndi, hanı Xocalı, deyib, Zəfərimizə kölgə salmaq istədilər. Lakin düşünmədilər ki, bu proseslərin hamısı eyni zamanda ola bilməzdi.

Ardı Səh. 11

# BÖYÜK ZƏFƏR:

## xalqın şərəf, qürur və namusunun xilası

Əvvəli Səh. 10

2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatlarından sonra ermənilərin könüllü şəkildə Xankəndi, Xocavənd, Xocalı və digər yurdlarımızdan çıxmasından sonra isə radikal müxalifət sülhməramlı qüvvələrin nə üçün Qarabağda qaldığını günün əsas mövzusuna çevirdi. Lakin bu dəfə də anlamaq istəmədi ki, axı bunların həlli üçün zaman lazımdır. Özləri də bilə-bilə ki, bu işlər heç də asan deyil, Ermənistanın arxasında havadarları var, lakin yenə də əldə edilmiş qələbəyə kölgə salmaq prinsipindən əl çəkmədilər.

Beləliklə, bu il aprel ayının 18-dən Rusiyanin sülhməramlı qüvvələri Qarabağı tərk etməyə başladıqdan sonra isə mövzuları bitməkdə olan radikal müxalifətə xarici qüvvələrin qrandları hesabına iğtişaş törətmək əmri verildi. Bu dəfə isə "nə edək ki, həm qrandlar əldən çıxmasın, həm də gündəmdə qalaq" prinsipi ilə yeni iddialara başladılar. Toplaşmaq, guya xalqa yol göstərmək fikrinə düşdülər. Görəndə ki, toplaşmaq da onların özü kimi 90-larda qalıb, çəkilib bir kənarda dayanmaqdan başqa çarə görmədilər.





Bunun ardınca Qazaxın 4 kəndinin azad olunası barədə sənədin inzalanması isə xaricdən ermənilərə havadarlıq edənlər kimi, onlara da tutarlı cavab oldu.

### Neoimperialist ünsürlər olmasa...

Söz yox ki, illərlə regionda sabitliyin, iki qonşu dövlət arasında sülhün bərqərar olmasını istəməyən qüvvələr mövcud olub. Zamanla bunlar dövlətlər olaraq dəyişiblər də. Ötən il antiterror əməliyyatından sonra bu qələbəni həzm edə bilmədiklərini açıqca nümayiş etdirənlər Ermənistana hərtərəfli köməklik göstərəcəklərini də açıqca bəyan etdilər. Lakin həmin vaxt Azərbaycanla Ermənistan arasında vasitəçi olmadan təmas onu göstərdi ki, vasitəçisiz diplomatiya, eləcə də neoimperialist qüvvələrin müdaxiləsi olmasa, Azərbaycan və Ermənistan sülhün əldə olunması istiqamətində ciddi nəticələrə imza ata bilərlər.



Xalq olaraq buna bənzər hadisələrin 90-cı illərdə də şahidi olmuşduq. Sovet imperiyasının son tör-töküntüsü də regionu öz təsiri altında saxlamaq üçün eyni siyasəti həyata keçirirdi. Ermənistanın qızışdırılması, sərhədlərimizdə iğtişaşların yaradılması, onların silahlandırılıb torpaq işğal etməyə həvəsləndirilməsinin hər birini vaxtilə müşahidə etmişik. Hansı ki, Ermənistan sivil qaydada davranarsa, öz maraqlarından çıxış edərsə və başqalarının əlində alət olmazsa, regionda davamlı sülh tam şəkildə təmin oluna bilərdi və hazırda da bu, belədir.

Bəs ilahi ədalət? Bunu nə üçün bunu görməyə bəzi dövlətlərin gözü yoxdur? Özlərini demokratiyanın beşiyi adlandıran dövlətlər heç bunun eşiyində belə dayanmağa layiq deyillər axı. Bu nə cür demokratiyadır ki, iki xalqın hansının haqlı, hansının haqsız olduğunu görə bilmir. Bir qərinə Azərbaycan torpaqlarını işğal altında saxlayan haqsız Ermənistanın yanında olanlar nə üçün Azərbaycanın dağılan yurdlarını, bir qərinə köçkün həyatı yaşayan insanlarını, məhv edilən dini-mədəni-tarixi abidələri görə bilmir? Nə üçün illərlə Azərbaycanın haqq səsini eşitmək üçün qulaqları kar oldu? Bu, necə ədalətdir?..

### Xalqın qürur və namusunun xilası

2020-ci ildən Prezident İlham Əliyevin liderliyi ilə xalqın itirilmiş torpaqlarının qaytarılması Azərbaycanın Zəfər tarixi adlı yeni xronologiyasını yaradıb. O xronologiya ki, tarixin 270 ildən çox axarını dəyişib göstərdi ki, zaman ona hökm oxuyan şəxsiyyətləri xalqların həyatına bəxş edə bilir. Bəxş edir ki, itirdiklərini yenidən onlara qaytara bilsin.




2024-cü ilin 19 apreli 2020-ci ildən qələbədən qələbəyə addımlayan Azərbaycanın şanlı tarixinə yeni bir hadisəni əlavə etməklə, Zəfər xronologiyasını belə sıraladı: 2020-ci il sentyabrın 27-dən 10 noyabradək Azərbaycanın əldə etdiyi tarixi qələbə - 44 günlük Vətən müharibəsi, 2023-cü il 20 sentyabr antiterror əməliyyatı, 2024-cü il aprelin 18-dən Rusiya sülhməramlılarının Azərbaycandan çıxarılması və 2024-cü il aprelin 19-da Qazaxın 4 kəndinin Azərbaycana qaytarılmasını təsdiq edən birgə bəyanat.



Azərbaycan xalqı inandığı, etibar etdiyi, arxalandığı və sevdiyi Lideri ilə xoşbəxt gələcəyə doğru bir yolçuluğa çıxıb. Bu yolçuluqda hər an Ümummilli Liderimiz Heydər Əliyevin parlaq ruhu bizimlədir. Çünki ağsaqqal olan yerdə Allah var, deyərlər. Ata vəsiyyətini reallaşdıran və bunu Şuşanın alındığı gün Bakıda Şəhidlər Xiyabanında böyük qürurla söyləyən Prezidentimiz xalqımızın çoxəsrlik ailə dəyərlərini qoruması ilə də nümunə oldu.

Nə xoşdur ki, Qarabağımızı-torpaqlarımızı, şərəf və namusumuzu xilas edən LİDERİMİZ var. Nə xoşdur ki, övladlarımız hər addımı Liderləri və dostları cənab İlham Əliyevdən öyrənirlər. Öyrənirlər ki, onlar da əsl övlad, əsl vətəndaş ola bilsinlər. Öyrənirlər ki, xalqın qürur və namusunun xilası olan Zəfər tarixi xronologiyasını davam etdirə bilsinlər.

### Böyük Zəfərdən Böyük Qayıdışa...

2020-ci ildə hələ müharibə bitməmişdi, torpaqlarımız azad edildikcə, dövlətimizin başçısının tapşırığına əsasən artıq bərpa işlərinə başlanmışdı. Çünki bu işlər nə qədər tez həyata keçirilsəydi, 30 il yurd-yuvasının həsrətində olan, evəşiyindən uzaqda yaşayan soydaşlarımızın doğma torpağına qayıdışı da o qədər tez olcaqdı. Beləlikə, Qarabağın bərpasına başlandı və bu gün orada artıq 30 min insan yaşayır.

Böyük Qayıdışın təməli 2016-cı ildə qoyulub. Həmin il dördgünlük Aprel döyüşləri nəticəsində Azərbaycan Ordusu qısa zamanda torpaqlarımızın bir hissəsini işğaldan azad edərək şanlı Zəfər səhifəsini yazdı. Prezident İlham Əliyevin Cocuq Mərcanlı kəndinin bərpası və əhalinin yerləşdirilməsi ilə bağlı 2017-ci ildə imzaladığı Sərəncama uyğun olaraq Böyük Qayıdış prosesinə start verildi. Beləliklə, Cocuq Mərcanlı Böyük Qayıdışın ilk ünvanı oldu.

Böyük Zəfərdən sonra, 2022-ci il noyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzaladı. Sərəncam qayıdış prosesini sistemləşdirdi və sürətləndirdi. Görülən işlərin ilkin nəticəsi olaraq 2022-ci ildə Zəngilan rayonunun Ağalı kəndinin sakinləri doğma yurdlarına qayıtdı.



Düşmənin daşı daş üstündə qoymadığı şəhər və kəndlərin bərpası hazırda sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində artıq yurduna qayıdan minlərlə soydaşımız var. Azad olunmuş şəhər və kəndlərə yaxın üç ildə 140 min insanın köçürülməsi planlaşdırılır.

Beləliklə, Böyük Zəfər həm xalqın şərəf, qürur və namusunun xilası oldu, həm də soydaşlarımızın məcburi köçkün həyatna son nöqtəni qoydu. Odur ki, Böyük Zəfərlə fəxr edir, qürur duyuruq. Bu Zəfər Azərbaycan xalqının qanla yazılmış tarixidir: bu xalq var olduqca yaşayacaq TARİX.

***Mətanət Məmmədova***

# Balacaların böyük mübarizəsi

*Uşaqlar və xəstəlik... Həm alışdığımız, həm də alışmadığımız vəziyyətdir. Həm eynilik, həm də təzaddır, deyilmi? Uşaqlar böyümə ərəfəsində xəstələnirlər, sağalırlar, yenə xəstələnirlər, yenə sağalırlar. Amma bu xəstəliklər zökəm, soyuqdəymə, lap qızılca, suçiçəyi olarsa alışılan vəziyyətdir. Zaman bizi istəmədiyimiz, adı gələncə bədənimizin ürpərdiyi bir xəstəliyə də alışdırdı. Xüsusilə də saf, tərtəmiz bədənləri amansız xəstəliyə yoluxan uşaqların bu xəstəlikdən əziyyət çəkməsi çox dəhşətlidir. Dünyada hər il təxminən 300 min uşağa xərçəng diaqnozu qoyulur və 80 min uşaq xərçəng səbəbindən ölür. Elə öz ölkəmizdə də hər il orta hesabla 170-200 uşağa xərçəng diaqnozu qoyulur.*



## Nədir xərçəng?

Xərçəng, bədənin hər hansı bir yerində hüceyrələrin nəzarətsiz və sürətlə çoxalmasıdır. Yetkin insandan fərqli olaraq, embrion tipli xərçənglərə uşaqlarda daha çox rast gəlinir. Uşaq xərçəngi diaqnozu qoyulmuş halların təxminən 5%-də irsi səbəblər göstərilə bilər. Bu irsi xəstəliklərə Daun sindromu, neyrofibromatoz, vərəmli skleroz, xromosom qırılma sindromları, hemihipertrofiya daxildir. Ancaq uşaq dövrünün xərçənglərinin əksəriyyətinin səbəbini müəyyən etmək mümkün deyil. Buna görə də uşaq xərçəngi üçün skrininq proqramı yoxdur.





Qan xərçəngi olaraq tanınan leykemiya uşaqlıqda ən çox rast gəlinən qan xərçəngidir. Xərçənglərin 70%-i bərk şişlər, o cümlədən beyin şişləri, limfa düyünləri xərçəngləri, neyroblastoma, yəni böyrəküstü vəzinin şişi, Wilms şişi, yəni böyrək şişi, hepatoblastoma, yəni qaraciyər şişi, osteosarkoma yəni sümük şişi, Ewing sarkoması, yəni əzələ şişi, rabdomiyosarkoma, yəni yumşaq toxuma şişi, retinoblastoma isə göz şişi kimi müəyyən edilir. Uşaq dövrünün xərçəngi hər yaşda baş qaldıra bilsə də, embrion xərçəngi xüsusilə uşaqların ilk beş yaşında daha çox rast gəlinir.

Uşaqlıq çağı xərçənglərində xərçəngin alt tipinə görə dərman müalicəsi, yəni kimyaterapiya, şüa terapiyası, yəni radioterapiya, cərrahi müalicələr, kök hüceyrə transplantasiyası və bunların müxtəlif kombinasiyalarından istifadə edilir. Son illərdə dünyada, erkən diaqnoz, habelə diaqnostika-müalicə və dəstəkləyici müalicələrdə əldə edilmiş irəliləyişlərlə, bərk şişlərdə sağalma nisbətləri 70%-ə qədər çata bilib. Bu uğurlu nəticələrə nail olmaq üçün vacib addımlardan biri də uşaqlıq xərçəngləri haqqında məlumatlılığın artırılması yolu ilə erkən diaqnozun təmin edilməsidir.

## Necə anlamalı?

Səbəbsiz arıqlamaq, sümük ağrısı, gəzinti zamanı tez yorulmaq, halsızlıq, zəiflik, yorğunluq, anemiya, tez-tez baş verən infeksiyalı xəstəliklər, sağalmayan yaralar, yüngül zədə alan zaman bədənin tez göyərməsi, qarın şişməsi, bədənin hər hansı bir yerində hiss edilən şişlik xərçəngin əlaməti ola bilər. Boyun, qoltuqaltı və qasıq nahiyəsində əl ilə hiss olunan şişkinlik, xüsusilə səhər saatlarında qusma ilə müşayiət olunan şiddətli baş ağrısı, dərslərə marağın və diqqətin azalması, yerişində dəyişiklik, gözlərdə qoşa görmə, balans və fokuslanmada pozuqluq da xərçəng xəstəliyinin xəbərçisi ola bilər.



Doğrudur, bu sadalananlar digər xəstəliklərin də əlaməti ola bilər. Ancaq bu simptomlar varsa, bir həkim tərəfindən müayinə olunması və xərçəng xəstəliyinin olub-olmaması dəqiqliklə yoxlanmalıdır. Xərçəng yoluxucu xəstəlik deyil. Ancaq həm xəstəliyin özü, həm də tətbiq edilən müalicələr immunitet sisteminə təsir etdiyi üçün xəstələr infeksiyalara daha çox meylli olurlar.

## Doğru zamanda, doğru yerdə və düzgün müalicə

Uşaqlıq dövrünün xərçəngindən qorunmağın qəti yolu yoxdur. Ancaq uşaqlarımızı xərçəngdən sığortalamaq üçün də yollar var. Natural qidalanma, qablaşdırılmış hazır qidaların, fast-foodların istehlakını azaltmaq, infeksiyalardan qorunmaq, immunitet sistemini gücləndirmək, kimyəvi kanserogenlərdən uzaq olmaq, radiasiyadan qorunmaq, günəş işığına həddindən artıq məruz qalmamaq, günəşdən qoruyucu vasitələrdən istifadə etmək kimi tədbirlər görülə bilər. Bütün uşaqların mütəmadi olaraq tibbi müayinədən keçməsi vacibdir. Uşaqlıq çağında aşkarlanan xərçənglər bu gün yüksək müalicə uğuru olan xəstəliklərdir. Erkən diaqnozla bu uğur daha da artır.

Ümumiyyətlə, xərçəngli uşaqların müalicəsində hər gün yeni bir ümid işığı yanır. Erkən diaqnozun vacib olduğu xərçəng xəstəliyində hər xəstəlikdə olduğu kimi müalicənin uğurla nəticələnmə nisbətini artırmaq üçün vaxtında müdaxilə vacibdir. Son 50 ildə uşaqlıq xərçənginin müalicəsində dünyada sözün yaxşı mənasında inqilab oldu. 1960-cı ilə qədər 20%-dən aşağı olan sağalma nisbəti indi 85%-ə çatıb.

Lakin bu uğuru əldə etmək üçün xəstələrin "doğru zamanda, doğru yerdə və düzgün müalicə"yə əllərinin çatması şərtdir. Qeyri-adekvat şərait, maddi imkanlar və zəif səhiyyə sistemi olan ölkələrdə bu xəstəlik hələ də təhlükəli olmaqda davam edir. Əslində bu günkü tibbi texnologiya ilə uşaqlıq dövrü xərçənglərinin 85%-ə qədəri müalicə effekti versə də, dünya üzrə orta göstərici 50% olaraq qalır. Qərbi Avropa və Şimali Amerikada 80% həddi aşıldığı halda, hələ də müalicənin müsbət nəticələnməsini 10-20% təşkil edən olduğu ölkələr var. Doğru yerdə düzgün müalicə ala bilən xəstələr üçün bu rəqəm daha da yüksələ bilər.

## Sığorta zərfinə daxil edilməlidir

Azərbaycanda 2012- ci ildə Milli Onkologiya Mərkəzinin nəzdində regionda birinci olan Uşaq Onkoloji Klinikası açılıb. Uşaq Onkoloji Mərkəzində kompleks mülicənin bütün növləri icra edilir-kimyəvi terapiya, şüa terapiyası, cərrahi müalicə, immunoterapiya və s. Korpusda uşaq cərrahiyyə, uşaq kimyaterapiya, uşaq şüa terapiya və uşaq reanimasiya viə anesteziologiya şöbələri fəaliyyət göstərir.

Məlumat üçün qeyd edək ki, ölkəmizdə "Mülkiyyət formasından asılı olmayaraq, tibb müəssisələrində onkoloji xəstələrin qeydiyyatı və uçotu Qaydası" nın təsdiq edilməsi haqqında və "Onkoloji xəstələrə göstərilməli olan tibbi yardımın həcmi vəkeyfiyyət standartları"nın təsdiq edilməsi haqqında qanunlaq qəbul edilib. Lakin onkoloji xəstəliyin müalicəsi olduqca böyük rəqəmlər tələb edir. Transplantasiya, radio və kimya terapiyalar üçün tələb olunan vəsait bir çox ailə üçün əlçatan deyil. Bu səbəbdən də onkoloji xəstəliklərin sığorta paketinə daxil edilməsi şərtdir.

Ölkəmizdə onkoloji xəstəliklərin müalicəsi tibbi sığorta zərfinə daxil edilməyib. Lakin bir neçə ay öncə icbari tibbi sığorta zərfinə orqanizmdə xərçəngə çevrilmə riski yüksək olan atipik hüceyrə dəyişiklikləri nəticəsində yaranan şişönü xəstəliklərin erkən diaqnostikası da əlavə edildi. Proqnozlara görə yaxın gələcəkdə bütün xərçəng növləri olmasa da, bəzi növlərin müalicəsi xidmətlər zərfi daxilində həyata keçiriləcək. Təmənnamız uşaq yaşda xərçənglə mübarizə aparan böyük qəhrəmanların xəstəliyinin dövlət hesabına müalicə edilməsidir.

**Lalə Mehralı**

# Onlara yollarda əngəl törədilir







***Gecənin sükutunu pozan, gündüzün hay-küyünə qarışan bir səs var - alışdığımız, diqqətimizi çəkən və bir az da təəssüf doğuran səsdir. Bəzən yol verən olmur, bəzən maneəyə tuş gəlir, bəzən də süni əngəllər yaradılır onların hərəkətinə. Təcili Tibbi Yardım maşınlarının yollarda üzləşdiyi çətinliklər, problemlər və əngəllər sürücü və ya piyada olmağımızdan asılı olmayaraq hamımızı narahat etməlidir.***

Bu problemin həlli cəmiyyət üçün çox vacibdir və həllində məhz hər birimizin dəstəyi gərəkdir. Təcili yardım maşınları və onların şəhər yollarında hərəkətinin tənzimlənməsi tək yol hərəkəti qaydalarına nəzarət edən polislərdən yox, hər bir vətəndaşdan asılıdır.

Məlumat üçün bildirək ki, tıxac problemləri olan böyük şəhərlərdə - Moskvada, Nyu-Yorkda, Parisdə təcili tibbi yardım maşınlarının, o cümlədən, fövqəladə və digər operativ xidmətlərin maşınlarının həyəcan siqnalı eşidilən kimi mütləq qaydada orta xətt boyu ilə yol boşaldılır. Sürücülər avtomobillərini sağa və sola sıxmaqla orta zolağı açırlar və operativ nəqliyyat vasitələrinin maneəsiz yolu keçməsinə imkan yaradırlar.

Bu kömək sayəsində tibbi, fövqəladə və ya texniki yardıma tələsən maşınlar orta zolaq ilə maneəsiz olaraq yüksək sürətlə hərəkət edə bilirlər. Bununla da insanların həyatının xilasında, fəlakətlərin nəticələrinin aradan qaldırılmasında sivil insanlar, sürücülər vətəndaşlıq borclarını yerinə yetirmiş olurlar. Lakin Bakıda təəssüf ki, belə deyil. Bizim ölkəmizdə təcili tibbi yardım maşınlarının problemləri əsasən paytaxtda yaranır, ona görə ki, Bakı gərəkdiyindən çox yüklənib, istər insan, istər də avtomobil-texnika baxımından. İndi Bakının mərkəzi küçələrində hərəkət etmək piyadalar üçün çətinləşib, o ki qaldı harasa yetişməyə çalışan təcili yardım maşınları.

Düzdü, xəstə üstünə çağırılan təcili yardım xidməti də parlaq fəaliyyət göstərmir, təcioli xidmət yerinə ləng xidmət göstərirlər, bunun özü problemdir. Lakin üstəlik də yollarda ləngidilir. Bakı şəhərinin bir çox küçələrində yaranmış nəqliyyat sıxlığı və tıxaclar, qeyri-nizami yol, avtomobil park əraziləri də təcili yardım xidmətinin ünvana tez çatmasına mane olur. Ancaq problemlərin başlıcası sürücülərin təcili yardım maşınlarına etinasız yanaşması, yol verməməsindən qaynaqlanır. Yol verməmək bir yana, bəzi səriştəsiz sürücülərin məsuliyyətsizliyi, normal idarə edə bilmədiyi avtomobilinin təcili yardımın hərəkətinə törətdiyi böyük maneə də ayrı bir problemdir

Birinci səbəb işıqforlarda qoyulmuş nəzarət kameralarıdır. Belə ki, işıqforda yolun açılmasını gözləyən sürücülər arxadan siqnal verən təcili yardım maşınına yol vermək üçün avtomobilini ya sağa və ya sola sıxmalıdır, ya da qırmızı işıqda yolu keçməlidir. Yollardakı vəziyyət sağa-sola sıxmanı mümkünsüz edir, zolaqlar tam yüklü olur. Nəzarət kameraları da qırmızı işıqda keçən avtomobili qeydə alır, yol hərəkət qaydaları pozulduğu üçün sürücünün cəza almaq ehtimalı var. Sürücü cəza alacağını bilə-bilə qırmızı işıqda yolu keçib ambulansa yol açmaq istəmir. Təcili yardım maşını isə ya xəstəyə çatmaq üçün, ya da xəstəni xəstəxanaya çatdırmaq üçün tələsir.

Yol mədəniyyətdir, dünya ölkələrində yollar salınarkən məhz mədəni qaydalar əsas götürülür. Təcili yardım xidmətinin, fövqaladə hallar maşınlarının normal hərəkətini təmin etmək üçün orta zolağı - "həyat zolağı"nı geniş salırlar. Sürücülər heç bir halda "həyat zolağı"ndan istifadə edə bilməzlər, zolaq fövqalada vəziyyətlər üçün boş saxlanılır. Bu zolaq imkan verir ki, hadisə baş verdiyində yardım maşınları tıxaca, problemə tuş gəlmədən mənzil başına tez çatsın. TTY maşınlarınım ünvana gecikməsinin bir səbəbi də ünvanların doğru yazılmaması ilə bağlıdır. Çox vaxt çağırılan ambulans ünvanı tapmır.

"Yol hərəkəti qaydaları" haqqında qanunun 48-ci maddəsinin 1-ci bəndində göstərilir ki, üzərində "polis", "təcili tibbi yardım", "yanğınsöndürən" yazılan nəqliyyat vasitələri xüsusi tapşırığı yerinə yetirərkən üstün hərəkət rejiminə malikdirlər. Bu şəraitdə onların sürücüləri xüsusi işıq və səs siqnallarından istifadə etməlidirlər. Eyni qanun tələb edir ki, sürücülər səs və işıq siqnallarından istifadə edən təcili tibbi yardın maşınlarına istənilən halda yol verməlidirlər. Bu tələbi pozanlar üçün cərimə də nəzərdə tutulub- 20 manatdan 40 manatadək.






Qeyd edək ki, bəzi ölkələrdə TTY maşınları üçün işıqforlara və nəzarət kameralarına xüsusi cihaz quraşdırılır. Bu cihazlar 900 metr uzaqlığa qədər nəzarət edə bilir. Eyni cihaz bütün təcili yardım maşınlarına da yerləşdirib və aralarında kontakt yaradılıb. İşıqforun, nəzarət kamerasının üzərindəki cihaz uzaqdan gələn maşındakı cihaz vasitəsi ilə təcili yardım avtomobilinin yaxınlaşması ilə bağlı ətrafa xəbərdarlıq edir və yardım maşınının hərəkət etdiyi istiqamətdə küçələr boyu quraşdırılmış xüsusi işıqlar yaşıl rəngdə yanır. Sürücülər bununla anlayırlar ki, təcili yardım maşını hansı istiqamətdə hərəkət edir və o yolu boşaldırlar. Təcili yardım ötüb keçdikdən sonra işıqlar sönür və ya axşam saatlarıdırsa normal işıqlandırma sistemi ilə yanır. Bu tətbiqetmə sayəsində ambulansların ünvana daha tez çatması mümkün olur.

Etiraf edək ki, bizim ölkəmizdə belə tətbiqlərin quraşdırılması real görünmür. O zaman iş düşür öz üzərimizə. Əgər sürücülər normal yol hərəkəti qaydaları çərçivəsində hərəkət edərsə, arxadan, öndən, yandan gələn xilaskarlara- təcili tibbi yardım maşınlarına yol verərsə, bu sahədə yaranacaq problemləri minimuma endirmək olar. Sürücülər sadəcə düşünsünlər, bu gün təcili yardım maşınında tıxaca düşən, xərəkdə can çəkişərək yolun açılmasını gözləyən xəstənin yerində özü və ya doğmalarından biri də ola bilərdi...

***Lalə Mehralı***



## Başımız üstündə və qəlbimizdə dalğalanan BAYRAĞIMIZ

**Mətanət MƏMMƏDOVA**

***Bu xalq dövlətinə, millətinə məxsus olan bayrağını asanlıqla yüksəklərə ucaltmayıb. Bu yolda zaman-zaman qanlar axıdılıb, igidlər, ərənlər düşmən gülləsinə tuş gəlib, Vətən yolunda şəhid olublar. Elə qırmızı rəngi şəhid qanından alan bayrağımız zirvələrdə dalğalanarkən şəhid adını da özü ilə birlikdə zirvələrə qaldırıb. Vətənimizin adını, qüdrətini, qeyrətini də həmçinin.***

Azərbaycanlıların canları qədər sevdiyi üçrəngli, ulduzlu, ayparalı bayraq... Lakin bu bayrağın da "taleyi" xalqın taleyi kimi keşməkeşli olub. 1918-ci ildə azadlıq uğrunda mücadilənin son nəticəsi olaraq qaldırılan üçrəngli bayrağımız Azərbaycan Xalq Cümhuriyyətində cəmi 23 ay dalğalandı, Vətən göylərini üç rənglə-göy, qırmızı, yaşılla cəmi 23 ay bəzədi.

Gözü torpaqlarımızda, iştahası sərvətlərimizdə olanlar bu müstəqil respublikanın tərəqqisinə imkan vermədilər. Əsrlərlə həyata keçirilmiş planlar yenidən təkrarlandı. Çoxəsrlik tarixi, ənənələri olan Azərbaycan yenidən bu planların qurbanı oldu. Həmin planların müəllifləri 15 müttəfiqdən biri kimi Azərbaycanı da öz müstəmləkəsinə çevirməklə, 70 illik əsarətə məhkum etdilər. Müstəqilliyimizi əlimizdən aldılar, üçrəngli bayrağımızı da dalğalanmağa qoymadılar. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Sovet Sosialist Respublikası adlandırıldı, bayrağımız isə üçrəngli deyil, imperiyanın müəyyənləşdirdiyi bayraq oldu. Nə az, nə çox, düz 70 il dalğalandı başımız üzərində. Lakin ürəyimizə yüksəklərə qalxa bilmədi. Çünki özümüzünkü olmayan bir bayraq idi. Qanlar bahasına ucaldılmış bayrağın yerinə sancılmış bayraq idi. Sərvətləri talanan, hüquqları tapdalanan, tarixi mənimsənilən bir məmləkətin ələm bayrağı idi.

İllər illərə calandıqca, onilliklər bir-birini əvəz etdikcə, zamanı 70 ilə yaxınlaşdırırdı, bununla da əsarətin sonu çatırdı. "Bayraqları bayraq edən üstündəki qandır" kəlamı bu illər uzunu ürəyimizdəki yaranı sızladırdı. Bu sızıltılar isə millətin yuxusunu ərşə çəkir, onu yeni mübarizələrə səsləyirdi. Bu səs Azərbaycana Naxçıvandan yayılırdı. 1990-cı ildə Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan Vətən oğlunun - Ulu Öndər Heydər Əliyevin azadlıq mübarizəsinə çağırışı ilə bütün Azərbaycana yayılırdı. Müstəqillik uğrunda 1918-ci ilin davamı olan mücadilə elə üçrəngli bayrağın yenidən qaldırılması, dalğalanması və bütün azərbaycanlıların bir bayraq altında cəm olması ilə başlandı. Bu təşəbbüs 1990-cı ilin 17 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi birinci sessiyasında qatı totalitar sovet rejimi dövründə belə, Azərbaycanı gələcək müstəqilliyə hazırlayan bu görkəmli siyasi xadim tərəfindən irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi və ölkənin ali hakimiyyət orqanı qarşısında Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul edilməsi ilə bağlı vəsatət qaldırıldı.

Bəli, bu, o zaman idi ki, hələ ölkə sovet imperiyasının əsarət zəncirində inləyirdi. Naxçıvandan Azərbaycana yönələn bu müqəddəs çağırışa imperiya başçıları tab gətirə bilmirdilər. Azərbaycanın əldən çıxması, onun ardınca digər müttəfiqlərin də getməsi... Bu yanğı ilə yenidən qanlar axıdıldı. Ölkəmizə xüsusi qoşun göndərildi xalqı susdurmaq üçün. Lakin bu dəfə azərbaycanlılar "öldü var, döndü yox", - dedilər. Elə buna görə də müstəqillik qazana bildik. Qanlar axıdılsa da, yenə də saysız-hesabsız şəhidlər versək də, sonda azad olduq. 1991-ci ilin 18 oktyabrınadək, yəni 1990-cı ilin 17 noyabrında Naxçıvanda Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılması təklif olunan və azadlıq mücadiləsinə aparan yolun rəmzi olan bayrağımız axıdılan qanla yenidən boyandı və əbədiyyən yüksəldi, dalğalanmağa başladı.

Sevindirici, həm də qürurverici haldır ki, müstəqil dövlətimizin üçrəngli bayrağı əbədiyyən Naxçıvanda Ulu Öndərimizin təşəbbüsü, qayğısı ilə qaldırıldı. Ümummilli Lider deyirdi: "Beləliklə, biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik. Və bu məsələlərin həll olunmasında deputatlar çox böyük maraqla, böyük səylə iştirak etdilər, ona görə mən bir də bu böyük məsələlərin qəbul olunması ilə əlaqədar olaraq Sizi təbrik edirəm. Və Sizin hamınıza bu işdə fəaliyyət göstərdiyinizə görə minnətdarlığımı bildirirəm".

Ulu Öndərin layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalamışdır. 2009-cu il noyabr ayının 17-də isə Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi barədə imzalanan sərəncama əsasən hər il noyabrın 9-nu respublikamızda Dövlət Bayrağı Günü kimi təntənəli şəkildə qeyd edirik.

İndi doğma Azərbaycanımızın paytaxtında və hər bir bölgəsində yaradılan Bayraq meydanlarında, Vətənində və Vətənindən kənarda yaşayan bütün azərbaycanlıların qəlbində üçrəngli bir bayraq dalğalanır.

Dalğalan, dalğalan, yüksəklərə, zirvələrə ucal, milli bayrağımız! Müstəqil Azərbaycanın dövlət rəmzi olaraq bu Vətənin azad səsini elə bu Vətənin külləkləri ilə dünyaya yay!

# İsraildən ABŞ-a siqnal

## Netanyahu müdafiə nazirini niyə dəyişdi?

***İsrailin baş naziri Benyamin Netanyahu Donald Trampın yeni prezidentlik müddətinə hazırlıqlara başlayıb. Siyasətçi ilkin nəticələr ortaya çıxandan sonra noyabrın 6-da respublikaçıları qələbəsi münasibətilə təbrik edən iklərdən olub. Amerikada səsvermə günü Netanyahu müdafiə naziri Yoav Qalantı istefaya göndərdiyini qeyd edib. Və bu, ekspertlərin fikrincə, Ağ Evdən gedən komandaya bir siqnal kimi görünürdü: Galant Cozef Bayden administrasiyasının yəhudi dövlətinin bütün hərbi macəralarını cilovlamağa çalışdığı fiqur hesab olunurdu.***

Netanyahu Trampın tezliklə Ağ Evə qayıtmasını "tarixi" adlandırıb. Bu hadisə "İsrail və Amerika arasındakı böyük ittifaqın güclü yenilənməsini qeyd edir", baş nazir respublikaçıya rəsmi təbrikində vurğulayıb. Baş nazirin bəyanatından başa düşmək asandır ki, Yaxın Şərq dövləti yeni administrasiyadan əlavə yardıma ümid edir. Qəzza zolağı ətrafında fırlanan regional münaqişə ili ərzində Bayden komandası dəfələrlə İsrailə silah yardımının saxlanması problemini hərbi yanaşmalarını yumşaltmaq üçün şərtlərdən birinə çevirməyə çalışıb. Bu, ABŞ və yəhudi dövləti arasında mübahisələrin tsiklik bir fenomenə çevrilməsi ilə nəticələnib.

İsrailin baş nazirinin yaxın gələcəkdə "yeddi cəbhədə" hərbi təzyiqi artırmaq niyyətində olduğuna işarəsindən bir gün əvvəl müdafiə naziri postunu tutan Yoav Qalant tutduğu vəzifədən uzaqlaşdırıldı. Hərbi idarədəki vəzifəsini tərk edən rəisi xüsusi televiziya müraciətində tez istefa verməsinin səbəblərini baş nazirlə eyni anda üç məsələdə fikir ayrılığı ilə izah edib. "İlk növbədə, mənim qəti mövqeyim budur ki, hərbi yaşda olan hər bir şəxs İsrail Müdafiə Qüvvələrində (IDF) xidmət etmək üçün göndərilməlidir və İsrail Dövlətini müdafiə etməlidir", - deyə hərbi lider hakim koalisiyanın səylərinə istinad edərək bildirib.

Qalant 2023-cü il oktyabrın 7-də törədilən qırğın zamanı Həmas yaraqlıları tərəfindən əsir götürülən israillilərə toxunaraq, "İkinci məsələ girovların sağ-salamat ailələrinə və evlərinə qaytarılmasının mənəvi borc və məsuliyyətidir" deyib. "Bu məqsədə nail olmaq mümkündür. Bunun üçün İsrail dövlətinin edə biləcəyi ağrılı güzəştlər lazımdır", deyə keçmiş nazir izah edib. Adını çəkdiyi üçüncü məsələ bir il əvvəl HƏMAS-ın quru işğalını araşdırmaq üçün dövlət komissiyasının yaradılması olub. Hərbi lider vurğulayıb ki, yəhudi dövləti İran və onun regiondakı peykləri ilə qarşı-qarşıya qalmaqda ciddi problemlərlə üz-üzədir. "İsrailin müdafiə sistemi güclüdür, biz düşmənlərimizə zərbə vurur və onları məğlub edirik", - o vurğulayıb.

Baş nazir müdafiə nazirinin portfelini əvvəllər mülki vəzifədə - Xarici İşlər Nazirliyinin rəhbəri postunu tutmuş İsrail Katsa ötürmək niyyətində olduğunu açıqlayıb. "Düşmənlərimiz üzərində qələbə qazanmaq və hərbi məqsədlərə nail olmaq üçün birlikdə çalışacağıq. Bu, ən mühüm missiya olaraq bütün qaçırılanların geri qaytarılması, Qəzzada HƏMAS-ın məhv edilməsi və Livanda Hizbullahın məğlubiyyəti, İranın təcavüzünün qarşısının alınması və İsrailin şimal və cənubunda yaşayanların təhlükəsiz şəkildə öz evlərinə qayıtmasıdır". Katz namizədliyindən sonra işinin məqsədlərini açıqlayıb.

Katz baş nazirin rəhbərlik etdiyi Likud partiyasının üzvüdür. 2003-cü ildən hökumətdə bir sıra vəzifələrdə çalışıb, xarici siyasət idarəsinin rəhbəri kimi bir sıra radikal bəyanatlar verib. Aydındır ki, onun təyinatı hərbi bloku loyal səslərlə sulandırmaq cəhdidir. Netanyahunun keçmiş mətbuat müşaviri Aviv Buşinski xəbər agentliklərinə "Katzın Netanyahuya qarşı çıxdığı vaxtı xatırlamıram" deyib. O əlavə edib ki, Netanyahu hər şeyi özü idarə etmək istəyir və o, komandanlıqdakı müxalifətə baxmayaraq, artıq bunu bacarıb.

Rusiyanın ABŞ-dakı səfirliyinin keçmiş əməkdaşı, beynəlxalq əlaqələr üzrə ekspert Vladimir Frolov qeyd edib ki, Qalant Bayden administrasiyasının Netanyahunu cilovlamağa çalışdığı əsas rabitə kanalı olub. "Onun vasitəsilə amerikalılar əməliyyatların əksəriyyətini və Amerika silahlarının və Amerika qüvvələrinin istifadəsinin miqyasını əlaqələndirdilər: bunlar təyyarələrə, raket əleyhinə müdafiə sistemlərinə və gəmilərə yanacaq doldurmadır", - ekspert izah etdi. - Qalant Livan macərasının əleyhinə idi. Burada Netanyahu Baydenə salam deyir və andiçmə mərasimi üçün hər şeyi yekunlaşdırmağı xahiş etsə də, Trampın ona məsləhət verdiyi kimi, indi istədiyini edəcəyini söyləyir".





### Qalantın istefası Netanyahuya sərbəstlik verdi

ABŞ prezidenti Co Baydenin administrasiyası İsrailin müdafiə naziri Yoav Qalantın istefası ətrafında yaranmış vəziyyətdən təşvişə düşüb. Ötən aylarda o, yəhudi dövlətinin rəhbərliyi daxilində Vaşinqtonun əsas təmas nöqtəsi olub. İsrail lideri Benyamin Netanyahunun Qalantı sadiq xarici işlər naziri, hərbi sahədə təcrübəsi olmayan İsrail Katz ilə əvəz etmək qərarı, iki cəbhədə davam edən müharibə şəraitində ordunun yüksək səviyyəli nümayəndələri arasında siyasi liderlikdən narazılığı aradan qaldırmaq cəhdi kimi görünür. Noyabrın 5-də ABŞ-da keçirilən prezident seçkilərində Respublikaçı Donald Trampın qələbəsi görünür, yalnız cənab Netanyahunu cəsarətləndirib.

Ağ Ev Netanyahunun müdafiə nazirini "xüsusilə də iki müharibənin ortasında və İsrail özünü İranın potensial hücumuna qarşı müdafiə etməyə hazırlaşdığı bir vaxtda" işdən çıxarmaq qərarından narahatdır. Onların fikrincə, ABŞ prezident administrasiyasının kadr dəyişikliyinə məhz nə təkan verməsi ilə bağlı "real sualları var". Qalant son 30 ildə Netanyahu ilə əsaslı fikir ayrılıqlarına görə vəzifəsini vaxtından əvvəl başa vuran dördüncü müdafiə naziri olub.

Müraciətində istefaya getməsinin səbəbləri ilə bağlı baş nazirin noyabrın 5-də axşam etdiyindən daha ətraflı izahat verib. İlk növbədə, Qalant sağçı dini siyasətçilərin dəstəklədiyi hakim koalisiyanın Haredimləri (ultra-pravoslav icması) hərbi xidmət keçmək zərurətindən qorumaq cəhdlərinə diqqət çəkib. Hərbi rəhbərin sözlərinə görə, o, hər zaman "hərbi yaşda olan hər bir insanın" hərbi həyatın yükünü bölüşməli olduğu qəti mövqeyini qoruyub.

### Yoav Galant nə ilə məşhurdur?

Müdafiə naziri ilə hökumət başçısı arasında ikinci mübahisə məqamı Qalantin çıxışından belə göründüyü kimi 2023-cü il oktyabrın 7-də HƏMAS silahlıları tərəfindən törədilən qırğın zamanı əsir götürülən girovların azad edilməsi məsələsi olub. Onun sözlərinə görə, Qəzza zolağından qalan məhbusların geri qaytarılması hakimiyyətin etməli olduğu "acılı güzəştlər tələb edir". Nəhayət, Qalantın istefasına təsir edən üçüncü şey oktyabrın 7-də "Qara şənbə" hadisələrini araşdırmaq üçün dövlət komissiyasının çağırılması zərurəti olub.

Hələ bu ilin avqustunda Knessetin qapalı iclasında çıxış edən Qalant baş nazirin Qəzzada "mütləq qələbəyə" nail olmaq məqsədini "cəfəngiyyat" adlandırmışdı. Daha sonra Netanyahu müdafiə nazirini "anti-İsrail ritorikasında" ittiham edərək, fövqəladə tədbirlər gördü. Hərbi lider ayrıca olaraq hökumətin Qəzza ilə Misir sərhədindəki dəhlizə nəzarəti saxlamaq istəyini danışıqlar prosesinin zərərinə "mənəvi utanc" adlandırıb.

### Galantın istefasına səbəb: inamsızlıq

Nazirin vəzifədən çıxarılması təşəbbüsü çox güman ki, ordu elitasının hökumətin şimal və cənub cəbhələrindəki kursundan narazılığını azaltmaq məqsədi daşıyır. İndi də İsrail təhlükəsizlik bloku yeni istefalar ərəfəsində donub. Yerli nəşrlər vəzifələrini itirməyə namizədlər arasında Baş Qərargah rəisi Herzi Halevi və Baş Təhlükəsizlik Xidmətinin (Şin Bet) rəhbəri Ronen Barın adını çəkir. Bununla belə, Netanyahu bu şayiələri təkzib etməyə çalışır.

İsrail Müdafiə portalının qeyd etdiyi kimi, hərbi idarənin yeni rəhbərinin etməli olduğu ilk şey İranın İsrailə növbəti hücuma keçmək istəyi ilə əlaqədar sursat tədarükünü koordinasiya etmək də daxil olmaqla, ABŞ ilə strateji tərəfdaşlığı davam etdirməkdir. Daxili cəbhədə, Katzın əsas vəzifəsi orduya çağırış parametrlərini və müharibənin əvvəlindən ölkənin şimal və cənub bölgələrindən təxliyə edilmiş mülki şəxslərin evlərinə qayıtmasını müəyyən etmək olacaq. Gallant Ağ Evin müharibə zonasında dağıntıların miqyasını azaltmaq tələblərinə rəğbət bəsləyirdi. O, tez-tez prezident Bayden administrasiyası ilə Netanyahu hökuməti arasında mübahisələrdə vasitəçi kimi çıxış etməli olub. Birləşmiş Ştatlarda səsvermə günü hərbi nazirin vəzifəsindən uzaqlaşdırılması Baydenin yol üstə olan komandasına ünvanlanmış nümayişkaranə jest kimi görünür.

Noyabrın 6-da İsrail lideri Trampa "Ağ Evə tarixi qayıdışı" münasibəti ilə təbrik göndərənlərdən biri olub. Son prezidentlik yarışından sonra amerikalı siyasətçi Baydeni qələbə münasibətilə təbrik etməyə tələsdiyi üçün İsrail baş nazirindən çox incimişdi. Lakin bu il Netanyahu respublikaçı ilə barışmağı bacarmışdı.

**V.VƏLİYEV**

RAKURS

# Georgi Qoquan: "Azərbaycan Qafqazda əsas oyunçudur"

"Cənubi Qafqaz Yaxın Şərqdən sonra dünya güclərinin maraqlarının toqquşduğu ikinci zonadır"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*








***Gürcü politoloq, beynəlxalq məsələlər üzrə ekspert Georgi Qoquan "Caliber" analitik mərkəzinə müsahibəsində Cənubi Qafqaz regionda gedən proseslərlə bağlı maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

***- Bu yaxınlarda keçirilmiş parlament seçkilərindən sonra Gürcüstanda vəziyyət necə inkişaf edəcək? Bəzi analitiklər hesab edir ki, Qərb Tiflisə təzyiqləri artırmağa çalışacaq, bəziləri isə deyir ki, seçkilərdə qalib gələn "Gürcü arzusu" ilə əməkdaşlığa məcbur olacaq.***

- "Gürcü arzusu" hökuməti hakimiyyətdə olduğu 12 il ərzində Qərblə yaxınlaşma istiqamətində bir çox addımlar atıb. "Gürcü arzusu" hökuməti çərçivəsində Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalanıb, Aİ-yə üzv ölkələrlə vizasız rejim tətbiq edilib, azad ticarət rejiminə start verilib. Ümumiyyətlə, Avropaya inteqrasiya baxımından Gürcüstan müsbət dinamikanı qoruyub.

Rusiyanın Ukraynada hərbi əməliyyatlara başlamasından sonra mənzərə dəyişdi. Bunun fonunda indiki hakimiyyət çox sarsıntılı körpüdən keçməli olur: Qərblə sıx əlaqələr saxlamaq və Avropaya inteqrasiya prosesini davam etdirmək, digər tərəfdən isə Rusiya Federasiyası ilə balanslaşdırılmış siyasət aparmaq lazımdır.

Hadisələrin bundan sonra necə inkişaf edəcəyini dəqiq proqnozlaşdırmaq çətindir, bu, Rusiya-Ukrayna müharibəsinin nəticəsindən, eləcə də Amerika Birləşmiş Ştatlarında keçirilən seçkilərin nəticələrindən asılıdır. Respublikaçılar Partiyasının namizədi Donald Trampın seçkidə qalib gəlməsi Rusiya ilə Ukrayna arasında münaqişənin sona çatması və Yaxın Şərqdəki böhranın yumşaldılması ehtimalını artırır. Baxmayaraq ki, Cənubi Qafqazda geosiyasi vəziyyətin necə inkişaf edəcəyi hələ də bəlli deyil. Gürcüstanda mühafizəkar qüvvələr Trampa böyük ümidlər bəsləyirlər, hökumət də hesab edir ki, Donald Trampın qələbəsindən sonra Qərbin təzyiqləri zəifləyəcək, gürcü-Amerika və Gürcüstan-Avropa münasibətləri yenidən qurulacaq.

Vaşinqton və Brüsselin nəzərə almadığı çətinliklər var- gürcü cəmiyyətinin milli kimliyi həddən artıq fərqlidir, o, Qərbin ultra-liberal demokratiyasına uyğunlaşa bilmir. Gürcüstan mahiyyətcə mühafizəkar ölkədir.

***- Gürcüstanda seçki kampaniyası zamanı hakim partiyanın nümayəndələri bir neçə dəfə GA-nın seçkilərdən sonra Aİ ilə münasibətlərini yaxşılaşdırmağa çalışacağını qeyd etdilər, ekspertlər bunun üçün xüsusi strategiyanın hazırlandığını deyirlər...***

- Bəli, partiyanın baş katibi və baş nazir qeyd edib ki, seçkilərdən sonra Avropa İttifaqı və digər Qərb institutları ilə münasibətlər yenidən qurulacaq. Hesab edirəm ki, bu, Avropa İttifaqının seçkilərin nəticələrini tanıması faktına əsaslanan bir xəbərdarlıqdır. Lakin hazırda heç bir Aİ lideri GA-nı qələbə münasibətilə təbrik etməyib. Bunu edən və Tbilisiyə rəsmi səfər edən yeganə avropalı siyasətçi Macarıstanın baş naziri Viktor Orban olub.

***- Moskva Tbilisiyə Sxinvali regionu və Abxaziya ilə dialoqun bərpasına kömək etmək arzusunu ifadə etdi və hakim partiyanın lideri Bidzina İvanişvili daha da irəli gedərək Tbilisinin 2008-ci ildəki hərəkətlərinə görə osetinlərdən üzr istəmək niyyətində olduğunu bildirdi. Sizcə, indi, seçkilərdən sonra bu proseslər necə inkişaf edəcək?***

-İvanişvilinin sözləri gürcü cəmiyyətində qarışıq dəyərləndirmələrə səbəb olub. Fikrimcə, abxaz və osetin xalqları, münaqişələr nəticəsində əziyyət çəkən insanlar üçün belə bir addım ədalətli və layiqli addımdır. Bu, eyni zamanda, Gürcüstanın həm Rusiya ilə, həm də işğal olunmuş rayonların faktiki liderləri ilə dialoqa hazır olduğunu göstərir. Artıq qeyd etdiyim kimi, Rusiya-Ukrayna müharibəsi qlobal geosiyasəti və qüvvələr balansını dəyişdi. Rusiya indi əvvəlkindən daha çox Cənubi Qafqazla maraqlanır. Aydındır ki, Rusiya çətin ki, geri çəkilsin və Abxaziya və Şimali Osetiyanın tanınmasından imtina etsin. Növbəti 10 ildə bundan söhbət gedə bilməz. Ruslar Abxaziya və Cənubi Osetiyanın inteqrasiyasının başqa formasını, məsələn, bu respublikaları muxtariyyət kimi tanımaqla təklif edə bilərlər. Köçkün əhalinin işğal olunmuş rayonlara qayıtması ilə bağlı razılığın əldə olunacağı da gözləntilər var. Siyasət tələsikliyi sevmir, əsas odur ki, hadisələr Gürcüstan üçün ən əlverişli geosiyasi şəraitdə inkişaf edir.

***- ABŞ seçkilərinin nəticələri Qərbin Cənubi Qafqazdakı geosiyasi fəallığına necə təsir göstərə bilər ki, bu fəallığı müsbət adlandırmaq olmaz? Bildiyiniz kimi, Fransa və ABŞ İrəvanı silahla doldurur.***

- Gürcüstandan fərqli olaraq, Azərbaycan əsas oyunçudur. Azərbaycan dünyanın istənilən böyük dövləti ilə ticarət apara, dövlət və strateji maraqlarını nəzərə alaraq siyasi dialoq qura bilər. Kamala Harrisin qalib gəlməsi ola bilsin ki, dünyada yeni gərginlik ocaqları yaranmasına və ya onsuz da gərginliyin yüksək səviyyədə olduğu yerlərdə münaqişələr daha da güclənməsinə səbəb ola bilərdi. Cənubi Qafqaz Yaxın Şərqdən sonra dünya güclərinin maraqlarının toqquşduğu ikinci zonadır. Belə bir şəraitdə region dövlətləri arasında sıx əməkdaşlığın dərinləşdirilməsi vacibdir. Biz birlikdə: gürcülər, azərbaycanlılar və ermənilər- Qafqazı Cənnət bağına çevirə bilərik! Əsas odur ki, tarixi xatırlayaq. Ötən əsrin əvvəllərində bu cür əməkdaşlığın, məsələn, Qafqaz Seymi kimi diqqətəlayiq nümunələri artıq mövcud idi. Mən həqiqətən inanıram ki, biz birlikdə tarixi yenidən yaza bilərik.



***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
8 noyabr
2024-cü il

# "Qan durulducu dərmanlar ölüm riskini artıra bilər"

*Türkiyəli professordan XƏBƏRDARLIQ*



Türkiyəli professor Özgür Mehtap qan durulducu dərmanlarla bağlı açıqlama verib. Anadolu Agentliyi xəbər verir ki, tanınmış professor qan durulducu dərmanların nəzarətsiz istifadəsinin ciddi qanaxmalara səbəb ola və ölüm riskini artıra biləcəyini qeyd edib.

SİTAT: "Qan laxtalanması damar tıxanmasına (tromboz) səbəb olur. Bu da dünyada ölüm hallarının 25 faizinin əsas səbəbidir. Ürək damarlarında tıxanma infarkt, beyin damarlarında tıxanma isə insult yarada bilər. Ağciyər damarlarında tıxanma nəticəsində emboliya və tənəffüs çatışmazlığı meydana gəlir.

Yüksək riskli insanlara profilaktik olaraq tətbiq edilən qan durulducu müalicələr trombozun qarşısını almaq məqsədi daşıyır. Lakin bu dərmanların həkim nəzarəti olmadan istifadəsi qanaxma riskini artıra bilər. Hansı şəxsə, hansı növ və müddətdə qan durulducu dərman istifadə olunacağına yalnız həkim qərar verməlidir. Özbaşına bu cür dərmanlardan istifadə etmək təhlükəlidir".

## Bu gündən Azərbaycanda altıgünlük bayram tətili başlayır



Bu gündən Azərbaycanda altıgünlük bayram tətili başlayır. SİA xəbər verir ki, ölkədə 8 noyabr Zəfər Günü, 9 noyabr Bayraq Günüdür. Noyabrın 9-u şənbə gününə təsadüf etdiyindən Nazirlər Kabinetinin "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında" müvafiq qərarına əsasən, noyabrın 11-i də qeyri-iş günü olacaq.

Bundan başqa, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə noyabrın 12-si və 13-ü iş günləri ilə müvafiq olaraq noyabrın 16-sı və 23-ü istirahət günlərinin yerləri dəyişdirilib. Bununla da noyabr ayında ardıcıl olaraq 6 gün (8, 9, 10, 11, 12 və 13 noyabr) iş olmayacaq. Növbəti iş günü isə noyabrın 14-də olacaq.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Real"-da gərginlik: Mbappe Ançelottidən narazıdır

**"Real"ın hücumçusu Kilian Mbappe meydandakı mövqeyindən narazıdır. QOL.az xəbər verir ki, bu barədə sport.es məlumat yayıb. Fransalı forvard hücumun mərkəzində oynamağı sevmir. O, hücumun cinahlarında istifadə olunsa, daha faydalı olacağına əmindir.**



Mbappe komandası üçün kifayət qədər qol vura bilməməsinin səbəbini bunda görür. O, baş məşqçi Karlo Ançelottidən narazıdır. Digər tərəfən futbolçunun meydanda qeyri-aktivliyi Karlo Ançelottinin və ümumilikdə klubun üzərində təzyiqi daha da artırır.

## "Nar"ın sərfəli "TouristSIM" tarifləri ilə Azərbaycanı kəşf et!




Ölkənin ən sərfəli mobil operatoru "Nar"ölkəmizə gələn turistlərin ünsiyyət ehtiyaclarını nəzərə alaraq, "TouristSIM" tariflərini təqdim edir. Xüsusi olaraq, ölkəmizə səyahət edən xarici qonaqlarüçün nəzərdə tutulmuş bu tariflərturistlərə sərfəli qiymətlə mobil internet, ölkədaxili və beynəlxalq zənglər təklif edir.

Ölkəmizdə vaxtlarını əyləncəli və səmərəli keçirmək üçün turistlər cəmi 34 AZN-ə "TouristSIM 40GB" paketi əldə edə bilərlər. Paketə 20GB mobil internet və sosial şəbəkələr üçün 20GB əlavə internet, həmçinin 100 dəqiqə ölkədaxili və 20 dəqiqə beynəlxalq zənglər daxildir. Bundan əlavə, irihəcmli paket əldə etmək istəyənlər üçün "TouristSIM 70GB" və "TouristSIM 130GB" tarifləri də mövcuddur. "TouristSIM 70GB" paketinə 40GB mobil internet, sosial şəbəkələr üçün 30GB internet, 170 dəqiqə ölkədaxili və 50 dəqiqə beynəlxalq zəng daxildir . "TouristSIM 130GB" paketinə isə 80GB mobil internet, sosial şəbəkələr üçün əlavə 50GB internet, 250 dəqiqə ölkədaxili və 70 dəqiqə beynəlxalq zənglər daxildir. "TouristSIM 70GB" və "TouristSIM 130GB" paketlərinin qiymətləri müvafiq olaraq 55 AZN və 75 AZN-dir.

Tarifi aktivləşdirmək üçün turistlər istənilən "Nar" mağazasına yaxınlaşaraq ölkəmizə giriş zamanı qeydiyyatdan keçirdikləri pasportları nıtəqdim etməlidirlər. Qeyd edək ki, paket aktivləşdirildikdən sonra 30 gün müddətində istifadə edilə bilər və bu müddətin sonunda nömrə avtomatik olaraq deaktiv edilir. Tariflər haqqında daha ətraflı məlumatı nar.az/TouristSIM səhifəsindən əldə etmək mümkündür.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**